**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**
**Azərbaycan ədəbiyyatı kafedrası**

*Əlyazması hüququnda*

**SEVİNC HİKMƏT qızı QULİYEVA**

# RAMİZ RÖVŞƏN POEZİYASINDA MƏZMUN VƏ FORMA AXTARIŞLARI

**İxtisas: HSM–060201–Azərbaycan ədəbiyyatı**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim olunmuş**

**D İ S S E R T A S İ Y A**

**Elmi rəhbər:** **Nuridə Zabit qızı Muxtarzadə**
**Filologiya üzrə fəlsəfə doktoru**

**BAKI – 2021**

# MÜNDƏRİCAT

**GİRİŞ**.........................................................................................................3-7

**I FƏSİL. Ramiz Rövşən şeirinin ideya-məzmun istiqamətləri**..................8-13

**1.1.** 1960-1990-cı illər poeziyasında yeni təmayüllər.....................................13-28

**1.2.** Ramiz Rövşən şeirinin mövzu dairəsi......................................................29-41

**II FƏSİL. Ramiz Rövşən poeziyasında bədii axtarışlar**.............................. 42

**2.1.** Yeni dövr şeirin məzmun və forma dəyişiklikləri.....................................42-50

**2.2**. Ramiz Rövşən poeziyasında bədiilik.......................................................51-63

**NƏTİCƏ**.........................................................................................................64-65

**İSTİFADƏ EDILMIŞ ƏDƏBİYYAT**....................................................... 66-69

# GİRİŞ

Ədəbiyyatın yaratdığı mətnin duyğuları, təfərrüatları özündə əks etdirən reallığı ilə xarici aləm reallığı arasındakı harmoniya, bu harmoniyanın varlığına dair düşüncə və araşdırmalar filoloji sahədə tədqiqatların başlanğıc nöqtələrindən biridir.

Məlum olduğu kimi, 60-cı illər həqiqətən ədəbiyyatımızda yeni bir mərhələ – artıq adət olunmuş ənənəvi mövzulardan uzaqlaşan bir mərhələ kimi ədəbiyyat tarixində qalmışdır. Bir çox yazıçı və şairlərin sayəsində ədəbiyyatımıza yeni nəfəs, yeni söz, yeni hava gəlmiş oldu. R.Rövşən də o dövrdə imzası ilə tanınmağa başlamış şairlər sırasındadır. Onlar geniş xalq kütləsinin sevimlisi olmuş ustad sənətkarların, görkəmli yazıçı və şairlərin yaradıcılığından çox şey öyrənmiş, onların deyə bilmədiklərini qələmə alaraq xalqa təqdim etməyi bacarmışlar. Lakin o dövrdə yeni düşüncə, yeni söz və bu məntiqə münasibət də birmənalı olmamışdır.

Ramiz Rövşən poeziyasının yeniliyi ənənəyə münasibətin konkretliyində və aydınlığındadır. O, poeziyamızda yaradıcılığı ilə yeni cığırlar açan, öz novatorluğu ilə minillik ədəbiyyatımızı zənginləşdirən görkəmli şairlərimizdən biridir. Onun lirikasındakı fəlsəfi dərinlik, qarşıya qoyduğu problemlər müasir dövrdə də öz aktuallığını itirməmiş və bu mövzular bu gün də öz həllini hələ də tam olaraq tapmamışdır.

Nəticə etibarilə, R.Rövşən şeirlərində insanlığın ən dərin qatlarına diqqət yetirir. Yeri gəldikdə həssas bir sözlə insanı parçalayır, zərifliklərini, qorxularını və zəifliklərini ortaya qoyur, gah da onu uca zirvələrə qaldıraraq böyük əhəmiyyət kəsb edən bəşəri məsələlərlə sinayır.

**Mövzunun aktuallığı.** Məlumdur ki, ədəbiyyat həyatı sözləri obraza salaraq təqdim edən və dini-fəlsəfi, mənəvi-əxlaqi dəyərlər aşılayan bariz sənət nümunəsidir. Məhz belə ideyalarla zəngin olan poeziyamız da öz sənət inciləri ilə dünyanın qiymətli örnəklərindəndir. Xalqımızın milli-mənəvi duyğularını özündə ehtiva edən, əzizləyib qoruyan poeziyamız gənc nəslin insani tərbiyəsində və mənəvi inkişafında böyük imkanlarla çıxış edir.

İnsanının düşüncələrindən, hisslərindən danışanda R.Rövşən qeyd edir ki, birmənalı olaraq insanın fikirləri heç bir zaman dəyişmir, dəyişən ətrafdır, mühitdir

və münasibətlərdir. Şairin yaradıcılığında fəlsəfə ritmik, poetik formada daha qabarıq əks olunur. Sənətkar üçün poeziya maddiyyat məsələsi deyil, qəlbinin dərinliklərindən, vətənpərvər və müstəqil duyğuların təsirindən gələn ideya-bədii ifadə vasitəsi, insan həyatının və məişətinin şəraitini yüngülləşdirmək, varlıqlar içində ən üstdə olan insanı həyatda xoşbəxt görmək üçün bir təbliğat vasitəsidir.

Bənzərsiz sənətkarımızın şeirimizə gətirdiyi innovasiyaları incələdikcə qeyd etmək lazımdır ki, Ramiz Rövşənin poeziyası bəzi məqamları istisna etməklə, tam və dolğun şəkildə incələnməyib. Tədqiqat prosesində bu məqamların açıqlanması dissertasiya işinin ən aktual problemlərindəndir. Şeirdə yaratdığı intuitivlik, yeni forma və məzmun axtarışları, şeirə yeni nəfəs gətirmək məharətinin tədqiqata cəlb edilməsi mövzunun aktuallıqları sırasındadır.

Milli poeziyanın ənənələrinə bağlı olan R.Rövşən heca şeirinin müasir ədəbiyyatımızda potensial imkanlarını reallaşdıran, "köhnə havalarda" təzə notlar səsləndirən şair kimi diqqəti cəlb edir. Onun şeirlərində sözlər dipdiridir, canlılar kimi nəfəs alır-nəfəs verir. O, sözün ruhunu və havasını yaradan şairlərdəndir. Quş, kötük, bulud, güzgü, ay işığı, çiçək, tabut, daş, ölüm, ayrılıq, yuxu, qapı - bunlar təzə sözlər deyil, amma Ramiz Rövşənin şeirlərində hər biri bir obraza çevrilir. Elə bu baxımdan da mövzu rəngarəngliyi və müxtəlifliyi ilə diqqəti cəlb edən R.Rövşən yaradıcılığının araşdırılması mövzunun aktuallıq dərəcəsini artırır.

**Tədqiqat işinin obyekti.** Tədqiqat işinin əsas obyekti Ramiz Rövşən yaradıcılığının inkişaf istiqamətlərini, mövzu dairəsini müəyyənləşdirmək və bunların ali məktəblərin bakalavr pilləsində öyrədilməsi, tədqiqata cəlb etməsi işini təmin etməkdən ibarətdir.

**Tədqiqat işinin predmeti.** Dissertasiya mövzusunun əsas predmeti 1960-1990-cı illər poeziyasında yeni təmayülləri müəyyənləşdirmək, bu zaman kəsiyində yazıb yaratmış sənətkarların yaradıcılığının ideya-bədii və estetik xüsusiyyətlərini və Ramiz Rövşən məktəbinin ziddiyyətli və mürəkkəb baxışlarını araşdırmaq olumuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Ramiz Rövşən yaradıcılığı, əsasən, “Nəfəs” şeirlər kitabında gerçəkliyin təhlili, əsas mövzu və

ideyanın tələbələr tərəfindən mənimsənilməsinə şərait yaratmaqdır. Eyni zamanda bu üsul və vasitələrlə tələbələrin dünyagörüşünü inkişaf etdirib mənəvi-əxlaqi, tərbiyəvi dəyərləri formalaşdırmaqdan ibarətdir. Digər tərəfdən isə dissertasiyanın məqsədlərindən biri Ramiz Rövşən yaradıcılığında yer alan mənəvi-psixoloji məqamların əhəmiyyətini tədqiq etməkdir. Bu mənada Ramiz Rövşən yaradıcılığının araşdırılmasına aşağıdakı aspektlərdən baxmaq işin konkret vəzifələrini müəyyənləşdirməyə xidmət etmişdir. Bu başlıca vəzifələr aşağıdakılardan ibarətdir:

- Ramiz Rövşən poeziyasının oxucu və tədqiqatçıların araşdırmasında yeri və rolunu göstərmək;
- 60-90-cı illər poeziyasının yeni təmayüllərini müəyyənləşdirən amillərə xüsusi diqqət yetirmək və yaradıcı münasibət sərgiləmək;
- Ramiz Rövşən irsinin ideoloji baxımdan sərhədlərini müəyyənləşdirmək;
- Ramiz Rövşən poeziyasına tənqidi baxışın mahiyyəti;
- Çağdaş poeziya və ədəbi axtarışlar kontekstində müasir düşüncə konsepsiyasını araşdırmaq;
- Ramiz Rövşən şeirinin mövzu dairəsində sentimentallıq və fəlsəfi düşüncənin təzahürünə baxış;
- Şairin ənənələrə söykənərək formalaşdırdığı yeni baxış, ənənələri zənginləşdirmək, təkmilləşdirmək, köhnəliyə müasirlik prizmasından yanaşmasını tədqiq etmək;
- Poetik təfəkkür və yanaşmanın ənənəyə baxış bucağını, cəmiyyətin dəyərləri ilə təmas formasını araşdırmaq;
- Şairin qadın, qadına sevgi mövzusuna, ailə-məişət məsələlərinə fərqli yanaşmasının müəyyənləşdirilməsi;
- Modernizm dalğasının yaranması və inkişafının səbəbini müəyyənləşdirmək.

**Tədqiqatın mənbələri.** Tədqiqat işinin yazılması zamanı Ramiz Rövşənin şeir kitablarına, onun yaradıcılıq istiqamətlərinə aid nəşr olunan məqalə, tezis və referatlara, internet saytlarına və vikipediya materiallarına istinad edilmişdir. Bununla yanaşı Ramiz Rövşən poeziyasında məzmun və forma dəyişiklikləri, intuitiv təfəkkür

və bədiilik haqqında təhlil və araşdırmalara dair elmi-tənqidi məqalələr və görkəmli sənətkarların bilik və təcrübələrindən istifadə olunmuşdur.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında aprobasiyadan keçmiş, kafedranın iclaslarında müzakirə edilmiş, müsbət rəy almışdır. Magistrantın tədqiqat işinin əsas məzmunu əhatə edən 1 məqaləsi elmi jurnalda çap olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi dedikdə müasir poeziyamızın ədəbiyyatımızda yeri haqqında aydın təsəvvür yaratmaq və şeirdə yeni istiqamət formalaşdırmaq, insanın təbiətlə vəhdətini poeziyamızın minillik tarixi boyunca hiss edilməsini qabartmaq nəzərdə tutulur. Təbiətdə insanı, insanda təbiəti əks etdirmək və bunların vəhdətinə klassik poeziyada Füzulidən sonra ən çox müraciət edən XX əsr şairləri olmuşdur. Ramiz Rövşəndə bu vəhdət panteist dünya durumu ilə diqqəti cəlb edir. Araşdırmanın digər elmi yenilikləri sırasında gələn əsas məsələlərdən biri də budur. İşin elmi yeniliyi arasında ilk dəfə olaraq Ramiz Rövşən poeziyasının özünəməxsus xüsusiyyətlərinin araşdırılması gəlir ki, bu da bu mövzuyla bağlı ilk magistr kimi tədqiqata işi olmasıdır. Dissertasiyanın elmi yeniliklərindən biri də yetişməkdə olan gələcək nəsillərə də həyata baxış bucağını düzgün və doğru istiqamətə yönəltmək və s. kimi təhlillərdir. Ramiz Rövşənin şeirlərində dil xüsususiyyətlərini, sənətkar və cəmiyyət birlikdə düşünülməlidir, bir-birindən ayrı ola bilməz devizini rəhbər tutaraq tədqiqat işində elmi yenilik kimi məqamları nəzərdən qaçırmadıq.

**Mövzunun praktik əhəmiyyəti.** İşin nəticələri ali məktəblərin filoloji fakültələrində Azərbaycan ədəbiyyatı fənninin tədrisi zamanı, buraxılış və magistr işlərinin tədqiqi zamanı, müasir poeziyamızın Ramiz Rövşən yaradıcılığı ilə maraqlanan bütün mütəxəssislər üçün faydalı ola bilər. Eləcə də yazıçının əsərlərini oxuyan oxucular üçün onun şeirlərini təhlil edib anlamasında yardımçı vəsait kimi də istifadə oluna bilər.

Həmçinin bu mövzu mühazirə, seminarlarda, müzakirələrdə aparılan diskussiya üçün xeyli yararlıdır. Aparılan ümumiləşdirmələr və müqayisəli təhlillər gələcək

zamanlarda oxşar mövzuların daha da tədqiqata cəlb olunmasında örnək olacaq və elmi müddəalar, nəzəri fikirlərin sistemləşdirilməsində baza rolunu oynayacaqdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, hər biri ayrılıqda 2 yarımfəsildən ibarət olmaqla 2 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Nəticə hissəsində tədqiqat zamanı əldə edilmiş əsas məsələlər qeyd olunmuşdur. Tədqiqat işinin ədəbiyyat siyahısında isə istifadə olunmuş elmi-bədii əsərlər, internet resurslarının siyahısı təqdim olunmuşdur.

# I FƏSİL.
# RAMİZ RÖVŞƏN ŞEİRİNİN İDEYA-MƏZMUN İSTİQAMƏTLƏRİ

Ramiz Rövşən müasir Azərbaycan poeziya sənətinin əsas simalarından biridir. Yaradıcılığa qədəm qoyduğu 1970-ci illərdən etibarən poeziyamızda fərqli üslub, fərqli baxış, fərqli imza formalaşdırmağı bacaran Ramiz Rövşən Azərbaycan şeirinin istiqamətini dəyişməyi bacarmış, öz poetik gücünü müasir dövrümüzə qədər qoruyub saxlamışdır. Ümumiyyətlə, ədəbi dövrə nəzər saldıqda görürük ki, 1960-cı illər poeziyası müşahidələrin öz əksini tapdığı, mücərrədlikdə belə məişət detallarının izi olduğu bir poeziya idi. 1970-ci illərdə isə poeziya dəyişməyə, hər şeyin görünən tərəflərindən daha çox görünməyən, gizli tərəflərinə, daxili və ilkin baxışda fərq edilməyəcək mahiyyətinə, alt qatına enməyə başladı. Belə olduqda isə, oxucular şeirdən qaçmaqdı, bu məzmunlu şeirlər onlar üçün əlçatmaz və anlaşılmaz olmaq yerinə, daha da açıq, daha aydın başa düşülən oldu, poeziya çoxmənalılıq qazanmağa başladı. Ramiz Rövşən də məhz belə bir dövrdə ədəbiyyat dünyasına ilkin addımlarını atmışdı.

Ramiz Rövşən şeir, hekayə, povest, esse müəllifidir. Onun şeirləri və hekayələri başqa dillərə tərcümə edilərək keçmiş SSRİ ölkələrində, həmçinin, Almaniyada, Fransada, ABŞ-da, İranda, Böyük Britaniyada, Bolqarıstanda, Polşada və Türkiyədə çap olunmuşdur. 2013-cü ildə "Türk dünyası Bilim, Kültür ve Sanat Ödülü"nə, 2019-cu ildə Avrasiya Akademiyasının akademiki və akademiyanın "Avrasiya Əfsanəsi" mükafatına layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin 25 may 2019 tarixli Sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Xalq şairi fəxri adına layiq görülmüşdür. Ramiz Rövşən, həmçinin, Azərbaycan Yazıçılar Birliyi idarə Heyətinin, Dünya Poeziya Hərəkatı Koordinasiya Şurasının üzvüdür.

İlk şeirlər kitabı 1970-ci ildə "Bir yağışlı nəğmə" adı altında çap olunan şairin, 1987-ci ildə "Göy üzü daş saxlamaz", 1999-cu ildə "Kəpənək qanadları", 2006-cı ildə

"Gedək biz olmayan yerə" və eyni ildə bundan öncə nəşr etdiyi kitabları da özündə cəmləşdirən "Nəfəs- kitablar kitabı" nəşr olunmuşdur. Ramiz Rövşən öz yaradıcılığında uşaq ədəbiyyatına da yer vermiş, bir-birindən dəyərli və yaddaqalan, uşaqları da özünə valeh edən və sevdirən uşaq şeirləri qələmə almış, 2018-ci ildə "Göyərçinim, gəl görüm" , "Gizlənmişəm, tap məni" adlı şeirli, şəkilli əlifba, uşaq şeirlərini nəşr etdirmişdir. Eyni ildə "Sevgi açarı" adlı kitabını nəşr olunan şair, adından da bəlli olduğu kimi, buraya sevgi şeirlərini daxil etmiş, heç vaxt heç bir yerdə və hansısa kitabda yayınlanmayan gənclik şeirlərini də bu kitaba əlavə etmiş, eyni zamanda tərcümələri və "Xəyanət" adlı kinopovestini də bu kitaba daxil etmişdir. 2021-ci ildə nəşr etdiyi "Bu dünyanın hər sifəti" adlı kitabında isə şairin bir çox tamaşalar, filmlər üçün qələmə aldığı şeir və mahnı mətnlərindən nümunələri və "Dərs" adlı pyesi yer alır. Son nəşr olunan "Köhnə qorxular" adlı kitabında isə heç bir kitabında çap etmədiyi, özünün də qeyd etdiyi kimi, yaşanmış ömrünü əks etdirdiyi gənclik və qocalıq dövründə qələmə aldığı şeirləri, dünya ədəbiyyatı poeziyasından etdiyi tərcümələri, "Ölü kimdi, diri kim?!" adlı kino-pritçası da öz əksini tapıb. Kitablardan əlavə, şeirlər, tərcümələr, povestlər və hekayələri 1970-1980-ci illər "Ulduz" , "Azərbaycan", "Qobustan" jurnallarında çap olunmuş, 1990-ci illərin əvvəlində "Xəzər" jurnalında böyük şeir silsiləsi dərc olunmuşdur. Sonrakı illərdə isə, yaradıcılığından nümunələr, əsasən, "525-ci qəzet"də nəşr olunub.

Azərbaycan ədəbiyyatının sütununu təşkil edən Ramiz Rövşən poeziyaya öz rəngarəngliyini qatmış, öz üslubunu yaratmış, hər kəs tərəfindən bilinən və bəlkə də adi yanaşılan bir çox məsələlərə, mövzulara öz aspektindən yanaşaraq fərqli bucaqlardan baxmış və ədəbiyyatımızda, həmçinin, insanlarda silinməz izlər qoymağı bacarmışdır. "Ramiz heç kəslə müqayisəyə gəlməyəcək bir şəxsiyyətdir. Sənətə gələndə o mənimçün çağdaş şeirimizin korifeyidir. Təkcə korifeyi yox, poeziyanın saf havasıdır, sözün dadı-duzu, səmimiyyətin özüdür. Mən dünyadan bezəndə, insanlardan iyrənəndə, qəzetlərdən, saytlardan, qeybətlərdən boğulanda Ramizin üstünə bir udum təmiz havaya, bir içim saf suya qaçan kimi qaçıram. Yalansız, riyasız, bütöv, kamil, mükəmməl bir insan, səmimi bir dünya." [21]

Ramiz Rövşən mütaliəni çox sevən, daim araşdıran, özünə qarşı ciddi tələbkarlıq edən şair olmuşdur. Onun sevdiyi şairlər və yazıçılar çoxdur. M.Füzuli, Mayakovski, M.Ə.Sabir, Çexov, Tolstoy, Nazım Hikmət, Frans Kafka, Tomas Mann, Markes, Mayakovski kimi ədibləri sevərək mütaliə edən Ramiz Rövşən, daim bir çox ədibin adı çəkmiş, lakin Azərbaycan ədəbiyyatında ən çox sevdiyi şairlərin Məhəmməd Füzuli və Mikayıl Müşfiq olduğunu dəfələrlə dilə gətirmişdir. Bundan əlavə, şair bildirir ki, "düşünürəm ki, Allaha Rumidən, insana Dostoyevskidən daha yaxın olmaq qeyri-mümkündür. Eyni zamanda Füzuli hissiyatımızın, Cəlil Məmmədquluzadə – əxlaq və mənəviyyatımızın, Məmməd Əmin Rəsulzadə – ağıl və siyasi düşüncəmizin sütunudur. Və bir də, onların hər üçünü öz yaradıcılığında cəmləyib bir ortaq məxrəcə gətirən dahi bəstəkarımız Üzeyir Hacıbəyovun yaradıcılığı mənim üçün böyük önəm daşıyır." [78]

Fəlsəfəyə, xüsusən, alman fəlsəfəsinə dərindən bələd olan Ramiz Rövşən fəlsəfəyə marağını və öz fəlsəfi baxışlarını şeirlərində uğurla əks etdirir. "Bəzən görürəm ki, gənc müəlliflər Ramiz Rövşəni fəlsəfi şair kimi təqdim etməkdən çəkinib sentimental şair kimi təqdim edirlər. Əlbəttə ki, həssas bir şairin yaradıcılığında sentimental məqamlar olur. Ancaq ustad şairin fəlsəfi şeirlərini görməzdən gəlmək düzgün deyil." [23]

Ramiz Rövşən daha çox şair kimi tanınsa və məşhurlaşsa da, onun nəsr əsərləri də mövcuddur. Povest, poema müəllifi olan şair həm epik, həm də lirik növdə əsərlər qələmə almışdır. Ramiz Rövşən şeirlərini bu qədər sevdirən bir səbəb də şairin qələmə aldığı əsərlərində fikrini ifadə etdiyi sözlərdi. Sözlər məna yüklü olmaqla yanaşı, o qədər xalq dilinə yaxındır ki, bu, şeirlərin daha rahat yaddaşda qalmasına və daha çox sevilməsinə səbəb olur. Ramiz Rövşən öz şeirlərində mifik dünya ilə real aləmin arasında əlaqə yaratdı, xalqın mifoloji düşüncələrini mənimsəyərək müasirlik ilə aradakı sərhədləri aradan qaldırdı. Şeirlərinə dastan, nağıl, folklor poetikası məcburi deyil, təbii formada qaynayıb-qarışdı. "Ramiz Rövşən poeziyası adi poeziya deyil, heç adiliyin poeziyası da deyil. Bu səssiz-küysüz, fəqət qəzəbli və inadkar bir fəryaddır. Onun şeirində ağaclar saçlarını yolur, daşlar hıçqırıb ağlayır, çap yaddaşı daş yaddaşından süzülüb burulur, saflaşır. Onun şeirlərində bir bütövlük var, bu

şeirlər normal doğulmuş körpə kimi bütöv, əlli-ayaqlıdır. Onlardan hansısa hissəni ayırıb misal gətirmək olmur. Bu şeirlər elə məntiqli bir poetik sistemdir ki, burada forma özü məzmun kimi çıxış edir.” [18]

Şairin xalq dilinə və xalq şeirinə bağlılığı əsərlərində nəsr və nəzm əvəzlənməsindən istifadə etməsində də özünü göstərir. Şifahi xalq ədəbiyyatında, folklor nümunələrində, əsasən, dastanlarda özünü göstərən nəsr və nəzmin bir-birini əvəz etməsi prosesi Ramiz Rövşənin “Süd dişinin ağrısı”, “Canavar ovu” poemalarında öz əksini tapır. Ramiz Rövşənin şeirlərində sözlər canlıdır, mifik dünyanın, folklor yaradıcılığının əksidir. O, sözləri canlandırır, canlı bir obraz kimi oxucunun qarşısına qoyur. Onun qələmə aldığı nümunələrdə istifadə etdiyi sözlər adi, bilinən, çox istifadə edilən sözlər olmuş olsa belə, o sözlərə yeni məna çaları qatmağı, onlardan canlı bir obraz yaratmağı bacarır. Güzgü, ayrılıq, ölüm, daş, çiçək, quş, tabut və digər bu qəbildən olan sözlər adi sözlər olsa da, şair bunlara yeni nəfəs verməyi bacarır, şeirlərində hər birini tam fərqli bir obraza çevirir.

“Ramiz Rövşən mənən, ruhən bütöv, dolu, hətta demək olar ki, tükənməzlik təəssüratı yaradan şairdir. Çoxlu üslub özünəməxsusluqlarından biri də məkanında olduğu dilin sözündən (leksik- semantik sistemindən), ifadəsindən, qrammatikasından daha çox səsindən (fonetikasından) istifadə etməsi, fonostilistik həssaslığıdır ki, fikrimcə, bu onun şeirlərinə xüsusi estetik canlılıq, nəfəs, enerji verir. Və şeirin ideya-məzmunu, bir qayda olaraq, bədii (poetik) səsin daxili gurluğunda, sistemli harmoniyasında, mistik ritmikasında təzahür etməklə mükəmməl bir forma- model qazanmış olur ki, nəticə etibarilə, həmin forma-model (bədii səs sistemi) özlüyündə bir obraza (əsərə!) çevrilir.” [11] Onun şeirlərində qəliz, anlaşılmaz ifadələr, terminlər, neologizmlər özünü göstərmir. Bununla yanaşı, seçdiyi, istifadə etdiyi sözlərin hər biri müasirdir. Ramiz Rövşən şeirlərini sadəcə poeziya nümunələri hesab etmək doğru deyil. Füzuli kimi o da sözə, sözün gücünə əhəmiyyət verir, onu dəyərləndirir. Onun yaradıcılığında sözün sehri, sirri və insanı düşündürmə gücü var.

“Ramiz Rövşən deyəndə ağla şeir gəlir, söz gəlir, sehr, əfsun, möcüzə gəlir. Sözün havadan, sudan, oddan, ağacdan, kötükdən, buluddan yaranmış müxtəlif

obrazlı şəkilləri gəlir. Sözün Allah şəkli gəlir, sözün qadın şəkli gəlir, sözün sevgi şəkli gəlir." [60]

Allahın canı yox,
Allah da sözdü. [43, s.76]

misralarını qələmə alan Ramiz Rövşən sözü, sözün qüdrətini Tanrı səviyyəsinə qaldırır. Cismi olmayan, mücərrəd Tanrı məfhumunun sözdə öz əksini tapa biləcəyini bildirir. Ramiz Rövşən özünü Allahın qulu, sözün isə Allahı hesab edir. "Sözün Allahı" olan şair, həqiqətən də, qələminin gücü ilə sözlərdən doğru istifadə etməyi bacarır, insanı gündəlik istifadə etdiyi anlayışlara belə fərqli nəzərlə baxmağa sövq edir.

Dünyanı Allahla bölüşdürmüsən;
Allahın qulusan
Sözün Allahı. [43, s.77]

İntiqam Mehdizadə Ramiz Rövşənlə bağlı xatirəsində yazır; "Uzunömürlü dostluq tariximizdə nəinki bir gün gün, bir saat, hətta bir saniyə belə şeirdən savayı bir missiya barəsin düşündüyünün şahidi olmadım. Nə vəzifə dalınca qaçdı, nə özünə gün-güzəran ağlamaq barədə fikirləşdi." [34, s.215-216] Ramiz Rövşən "Xalq Şairi" fəxri adını almadan əvvəl də, daim xalqın şairi olmuşdur. Heç vaxt təqdir olunmaq, mükafatlara layiq görülmək, tanınmaq üçün xüsusi nəsə etməmiş, sadəcə özü olmuşdur. Özü olduqca, səmimi olduqca isə daha çox sevilmiş, insanların, oxucularının qəlbində taxt qurmuşdur. TÜRKSOY Ramiz Rövşəni medal ilə təltif edərkən, Anar ilə maraqlı dialoqları yaranır : "Ramiz Rövşən bu bahalı qələm dəstini, bir də gül buketini (bunsuz hədiyyənin dəyəri olmaz) götürəndə Anarın əlavəsi eşidildi: "TÜRKSOY sənə medal göndərib". Medalı Ramiz Rövşənin sinəsinə taxmaq istəyəndə şair gülümsəyərək etiraz elədi: "Sinəm medala öyrəşməyib, sonra taxaram". Təbii ki, o sinədə şeirlər yaşayır, hamının əzbər bildiyi və elə hamının da sinəsində gəzdirdiyi şeirlər." [59]

Ümumiyyətlə qeyd edək ki, XX əsrin sonlarında ədəbi-bədii prosesdə iştirak edən yazıçılar və şairlər azərbaycançılıq ideyasının möhkəmlənməsi xəttini diqqətdə saxlayırdı. Yazıçılar, şairlər, ədəbiyyat adamları, milli hərəkatın yüksəliş illərində də

Azərbaycan dilinin və tarixinin müxtəlif məsələlərini diqqət mərkəzində saxlamaqla, bunlara millətin varlığı üçün ən mühüm amillər kimi yanaşırdılar. Adətən deyirlər ki, yaşadıqları dövrün zamanın bütün hadisələri əsl şair və yazıçıların yaradıcılığında özünü göstərir. Dünənimizin bir sıra görünən və görünməyən cizgiləri məhz yazıçıların əsərlərində öz ifadəsini tapır.

Ramiz Rövşən poeziyasında öz dövründə baş verən bütün hadisələr öz əksini tapmışdır, başqa sözlə şairin yaradıcılığı zamanın rolunu oynayan poeziyadır. Onun poeziyasının mövzu dairəsi qaldırılan problemlərə görə də rəngarəngdir. Şairin şeirlərin mövzu dairəsi müəllifin daxili yaşantıları qədər genişdir.

## 1.1. 1960-1990-cı illər poeziyasında yeni təmayüllər

Ədəbiyyat həyatı əks etdirmə sənəti olaraq həm həyatı, həm də müəyyən tarixi dövrü, tarixi prosesləri özündə əks etdirməyə qabil sənət növüdür. Ədəbiyyat daim zamanın aynası olub, onu özündə əks etdirib. İstənilən bir tarixi dövrdə baş verən proseslər, yaranan müxtəlif hadisələr, şair və yazıçı qələmində özünü əks etdirib, nəsillərdən-nəsillərə ötürülüb. Bu baxımdan ədəbiyyat tarix qədər əhəmiyyətli bir sahədir və bir yazıçı tarixçi qədər əhəmiyyətə malikdir. Ədəbiyyatda bu vəzifə digər sahələr ilə müqayisədə poeziyada daha çox özünü göstərir.

Poeziya baş verən hadisələrə, müxtəlif proseslərə ilk və operativ reaksiya göstərən janrdır. Bu baxımdan, hər hansısa dövrün yenilikləri ilə tanış olmaq üçün poeziyanın tədqiqi böyük əhəmiyyət daşıyır. “Mənəvi tərəqqidə ədəbi hərəkəti və diriliyi təmin edən strategiyanı həmişə poeziya və fəlsəfə hazırlayıb”. [29, s.193]

Ədəbiyyatda yeni cərəyan, istiqamət və təmayüllərin meydana gəlməsi, əsasən, yeni insan konsepsiyanın formalaşması və ənənəvi ədəbiyyata, sənətə tənqidi yanaşma ilə bağlıdır. Ədəbiyyatın əsas məsələsi, problemi insan olduğunu nəzərə alsaq, müxtəlif ədəbi təmayüllərin marağında olduğu, həlli üçün çalışdığı ən əsas problemlərdən biri də insana yeni baxış, yeni insan konsepsiyası məsələsinin ön plana çəkilməsidir.

Zaman və dövr dəyişdikcə, mədəni və sosial mühit insan haqqında yeni təsəvvür və düşüncələr formalaşdırır. Çünki dəyişən zamanla birlikdə, zamanın hakim olduğu düşüncə və təsəvvürlərdə də yenilik baş verir, dəyişikliklər özünü göstərir. Düşüncə və yeni baxış tərzi formalaşmadıqda, yeni dövr insanını başa düşmək, onu anlamaq çətinləşir.

Ədəbi təmayüllərin yaranması istiqamətində bir sıra müxtəlif amillər özünü göstərir. "Ədəbi təmayüllər, adətən, fikrin, düşüncənin dramatikliyi ilə müşayiət olunan zaman kəsimlərində meydana gəlir və dövrün hakim ideologiyasına müxalif olaraq yaranırlar." [2, s.35]

Dünya ədəbi cərəyanlarının, bir çox ədəbi yeniliklərin milli poeziyamızda da öz əksini tapması özünü göstərir. Bütün bu yenilik və dəyişiklikləri, üç mərhələdə qruplaşdırmaq olar. Bunun ilk qatından bəhs edərkən XX əsrin əvvəllərinə nəzər salmaq lazım gəlir. M.Hadi, Ə.Hüseynzadə, S.Vurğun, H.Cavid, M.Müşfiq yaradıcılığına nəzər salmaq dünya ədəbi cərəyanlarının təsirini görməyə kifayət edir. Bu təsir danılmazdır. Bəhsi keçən dövrdə həm Avropa şeirinin, həm də türk şeirinin milli poeziyamızda özünü ifadəsi qeyd olunan sənətkarların bir çoxunun Avropa və Türkiyədə təhsil görməsindən, oranın ictimai-ədəbi mühiti ilə, bir çox yenilikçi şairləri ilə tanışlıqlarından, həmçinin, tərcümə edilmiş bir çox ədəbi nümunələrdən təsirlənməklərindən yaranırdı. Şairlərimizin təsirləndiyi ədiblərə türk ədəbiyyatından Ə.Hamid, R.Tofiq, N.Kamal, T.Fikrət, Avropada Şiller, Höte, Bayron, Rusiyada Lermantov, Puşkin, Mayakovski, Bednı, Yesenin, Blok kimi ədibləri nümunə göstərmək olar. İkinci mərhələ isə XX əsrin 60-80ci illərindən başlayaraq inkişaf etməyə başlayır. Bəhs olunan tarixi dövrdə Ə.Kərim, İ. İsmayılzadə, R.Rza, Ə.Salahzadə və digər şairlərimizin şeirlərindəki yeni üslub, yeni nəfəs, yeni ifadə tərzi, həmçinin, Ramiz Rövşən, Vaqif Səmədoğlu poeziyasının dağıdıcılığı diqqət çəkir. Bu şairlərin qələmə aldığı ədəbi nümunələr öz mərhələ əlamətlərini yarada bilmişdilər. Milli müstəqillik dövründə, yəni 1990-cı illərdən sonra isə poeziya tam fərqli formada özünü göstərməyə başlayır. "… müstəqillik dövründə yaranan ədəbiyyat mahiyyətcə yeni bir ədəbiyyatdır və onu yaradanların dünya duyumunda

əvvəlkilərdəm müəyyən estetik fərqləri var. Bu fərq tamam ayrı bir zamanda formalaşan insanın düşüncə və duyğularıdır.” [2, s.18]

XIX əsrin sonları – XX əsrin əvvəllərində Avropada meydana gəlmiş və formalaşmış bir çox cərəyanların ortaya çıxma səbəbi kimi maarifçilik ideyalarının özünü tam doğrultmadığını və ağlın süqutunu misal göstərmək olar. Birinci və ikinci dünya müharibələri, inqilablar, əksinqilablar, zülm, zorakalıq ağlın gücü, təntənəsi ideyasını zəiflətdi. Yeni düşüncə tərzinə, mövcud vəziyyətə cavab olaraq bədii ədəbiyyat yeni təfəkkür və düşüncə modelləri axtarışına başladı. Yeni münasibətlər fonunda modernist cərəyanlar özünü göstərməyə başladı.

“XX əsrin əvvəllərində Qərbdə yaranmış cərəyanlar klassik qəlibləri dağıtmaq ehtiyacından, müəyyən iqtisadi, siyasi-ictimai şərtlərdən, insanın daxili narahatlığından, özünü azad ifadə etmək, dünyanı dəyişmək arzusundan, keçmişə, ənənəçiliyə qarşı revanşist ovqatdan meydana çıxırdı.” [2, s.37] Məsələn, dadaizm Qərbi Avropa rəssamlığı və ədəbiyyatında yaranmış modernist cərəyan idi. Sənətkarlar burjua ədəbiyyatı və incəsənətinə qarşı çıxır, həm də Birinci Dünya Müharibəsindən doğan fəlakətlərə, nəticələrə etiraz edir, rasionalizmə qarşı çıxırdılar. Ekspressionizm dövrün siyasi vəziyyətinə, kapitalizmə qarşı göstərilən reaksiya idi. Kubizm özündən əvvəlki ənənəni inkar, sadə modellər, formalar axtarışında olurdu. Romantizm isə realizm cərəyanına qarşı çıxır, real dünya ilə uzlaşmayaraq öz idealını realizmə qarşı qoyur. Romantizm cərəyanının əsas məqsədi istismar edən cəmiyyətə etiraz etmək, istədikləri həyatı görə bilmədikləri üçün xəyal aləminə baş vurmaq idi. Göründüyü kimi, bütün yeni cərəyanlar mövcud şəraitə, ictimai-siyasi qanunlara, birtərəfli düşüncəyə, alternativin qoyulmadığı sabit münasibət nümayiş etdirən cəmiyyətə qarşı çevrilən azad düşüncənin təntənəsi idi.

Azərbaycan ədəbiyyatına nəzər saldıqda H.Cavid, Ə.Cavad, M.Hadi, Ə.Hüseynzadə yaradıcılıqlarında özünü göstərən milli insan problemi, milli varlığın fonunda əsrin mövcud problemləri və əsl məzmunu, ümidsizliklərin təsirlərini müşahidə edə bilirik. I Dünya Müharibəsinin törətdiyi fəsadlar, insanlığa, insanlara qarşı tətbiq olunan amansız qərarlar adı çəkilən şairlərin də yaradıcılığında təsirsiz ötüşməmişdir. İnsanın psixoloji durumu, boşluq, təklik hissi şairlərin lirikasında əks

olunmağa başlayırdı. Eyni zamanda, Səməd Vurğun lirikası, Mikayıl Müşfiq şeirində əhatə olunan kədər simvollarını duymaq heç də çətin olmur.

Qorxmaz Quliyev yazır: "Ədəbi cərəyanlar bədii fikrin müəyyən bir mərhələsində, yaradıcı sənətkarın öz fərdiyyətini təsdiq edə bildiyi və bədii fikrin öz spesifikliyini dərk etdiyi bir dövrdə meydana çıxır." [33, s.9] Cərəyanların özünü doğrultması, funksionallığı üçün ədəbi mühitin azad, sərbəst olması vacibdir. Sənətkarın yaradıcılığına məhdudluq qoymaq, onun düşüncə sərbəstliyini, düşündüklərini, hislərini əlindən almaq, buna sərhəd çəkmək cərəyanların mövcudluğuna, inkişafına ciddi əngəl törədir. Ədəbi təmayüllərin yaranma şəraitini, səbəbini axtarmaq üçün dünya ədəbiyyatına nəzər saldıqda bir çox məqamlarla rastlaşırıq. Cəmiyyətdə hökm sürən xaosun, xaotik durumun harmoniyanı üstələməyi, mədəni, əxlaqi, ictimai-siyasi dağınıqlığın yaranması yeni yaranmış cərəyanların bədii təfəkkürə daha sürətli yansımasına səbəb olur. Milli ədəbiyyatda buna zəmin yaradacaq zaman kəsimi XX əsrin əvvəlini və sonunu əhatə edir. Bu mərhələlərdə ədəbiyyatda kəskinləşən nihilizm dalğasının məğzini, demək olar ki, eyni əsaslar təşkil edir.

XX əsrin əvvəllərindən etibarən özünü bəlli edən, poetik təfəkkürdə izləri görünən, müəyyən əlamətlərlə özünü göstərən modernizm 60-cı illərdən etibarən ədəbiyyatda müəyyən əhatəlilik qazanır, 80-ci illərin sonlarında isə bütün imkanlarından istifadə edərək mətnlərdə özünü göstərir. Bunun səbəbi, ilk növbədə, insanın özünüdərk səviyyəsinin yüksəlməsi, dünya və insan konsepsiyasının dəyişməsi, fərqli baxış bucağının yaranması, yeni dəyərlər fonunda fərqli düşüncə formalaşması ilə bağlı idi.

Dünya mədəniyyətinə nəzər salsaq, modernizm dalğasının yaranması və inkişafının bir neçə səbəbini müəyyənləşdirmək mümkündür. İlk səbəb olaraq dini fanatizmə qarşı edilən etiraz, elmin, ağlın, rasional düşüncənin inkişafını göstərmək olar. Orta dövr ədəbiyyatı bir çox halda dini ideologiyanın, dini inancların təsiri ilə formalaşmışdır. Müasir ədəbiyyat bu düşüncəni arxa plana atıb antik dövr ədəbiyyat nümunələrini yeni dövrə uyğunlaşdırdı. İntibah dövrü başladı, insan məsələsi, humanizm ideyaları ədəbiyyatın mərkəzində dayandı. İnsan mövzusunun

ədəbiyyatımızda qabardılması prosesi qədim dövrlərdən bəri özünü göstərir. Amma modernizm təkcə ümumi insan amili ilə bağlı deyil, fərdi insan konsepsiyası burada əsas məsələdir. Bu səbəblə, Azərbaycan ədəbiyyatında, xüsusən poeziyamızda modernizm olaraq səciyyələndirə biləcəyimiz ilk nümunələr 60 - 70-ci illərə təsadüf edir.

"Əslində, o şəkildə ki, sovet dövrü Azərbaycan ədəbiyyatında "ələmdən nəşəyə" deyə yaradıcılıq manifestini cızır və gələcək inkişafı bu nüansa kökləmək missiyasını qarşıya qoyurdular - tarix sübut etdi ki, bu, heç də səmərəli nəticə vermədi. Bəlkə ən əvvəl ona görə ki, süni pafos və gülüşdən doğmuşdu, sənətkar amalının cəmiyyət həyatı, gerçəkləri önündə fiaskoya uğraması, ziddiyyət təşkil eləməsi ilə təbiiliyini itirirdi." [2, s.45] 1960-ci illərdən etibarən sənətə, ədəbiyyata, həyata baxış yönünü dəyişdirdi.

Milli ədəbiyyat 1960-cı illərdən öz sərhədlərini aşsa da, mövcud rejimin sərtlikdən yumşaqlığa doğru keçidi özünü göstərsə də, ədəbiyyatda sevinc və xoş əhval-ruhiyyənin əksinə olaraq kədər, tənhalıq, ağrı, təklik çalarları daha çox üzə çıxırdı. Sanki, ötən illərin üzə çıxa bilməmiş, dilə gətirilməmiş ağrıları, əzabları, 1937-ci ildə repressiyaya qurban getmiş insanların çığlıqları illər sonra bu formada ortaya çıxırdı.

"(Təsadüfi deyil ki,) 1970-ci illərdən milli ədəbiyyat eyni zamanda dekadans durumunu yaşamağa başlayır. Mündəricə etibarilə bu, "sovet ədəbiyyatı"nın ömrünün süni-ideoloji vasitələrlə uzadılması, digər tərəfdən romantik-realist ədəbiyyatın təcrübəsinin "dolğunluğu", sona çatması şəraitində baş verir. Və post-realist təcrübə zəruri olur... O zamandan az qala əsrin sonunacan bizim ədəbiyyatda dekadans hökm sürür və bütövlükdə milli modernizmi gəlişdirə bilir" [58]

1990-cı illərdən etibarən isə Azərbaycan həqiqətlərinin ədəbiyyata gətirdiyi mövzular öncəki dövrlərlə müqayisə etdikdə təsəvvür sərhədlərini aşır. Mövcud olan xaotik vəziyyət böyük zərərini insana vurur, belə ki, insanın yadlaşması, özü özüylə özgələşməsini, ayrılmasını şərtləndirir.

Keçid dövrü daim çətinliyi, elmi, bədii, ictimai- sosial dəyərlərin yeni təsəvvürlərlə formalaşması, yenidən qiymətləndirilməsi ilə səciyyələnir. İstər bədii

düşüncə və təfəkkür tərzi, istərsə də, bunun dərki ciddi dəyişikliklərə uğrayır. Belə qarışıq durumlar insanın şüurunda xaosun yaranmasına səbəb olur.

Bu dövrdə postmodernizm müasir dövrün anlama prosesini dəyişməyə və üstünlüyünü göstərməyə başladı. "Klassik ictimai-mənəvi dəyərlər daha çox çağdaş siyasi meyarlar çərçivəsində qiymətləndirilməyə başlandı. Dünyagörüşdə, ideologiyada boşluq yarandı və hakim stereotipləri siyasi konyüktura və digər ifratlar əvəz etdi" [5, s.13]

1990-cı illər poeziyasında da Avropa ədəbiyyatının keçdiyi bir əsrlik uzun yolu, sürətlə keçmək istəyi, bunun üçün edilmiş radikal cəhdlər özünü göstərirdi. Bu dövr poeziyasını yeni meydana gəlmiş təmayüllər fonunda öyrənmək qələmə alınmış bu mətnləri qeyd olunan metodların mürəkkəb qarşılıqlı əlaqəsi zəminində araşdırmağı vacib edir.

60-ci illər poeziya janrını araşdırılmış, ona bir çox tətqiqatlar həsr olunmuşdur. Bu tətqiqatlara nəzər saldıqda müxtəlif ziddiyyətli və təzadlı fikirlərlə rastlaşmaq mümkündür. Yaşar Qasımbəyli "Milli oyanış və özünəqayıdış lirikası" adlı tətqiqat işində belə qeyd edir: "altmışıncıların yaradıcılığına yanaşsaq və onların poetik bioqrafiyasını ümumiləşdirməli olsaq, deməliyik ki, onlar estetik inqilabçılar və kəskin poeziya islahatçıları deyildilər. Altmışıncılar 30-cu illərdəki modernizm dalğasından sonrakı epoxanın övladları kimi ədəbiyyata təşrif buyurmuşdular. Altmışıncılar - anti-modernist idilər. Amma onların anti-modernist və yenilikçi olmaması bu dövr poeziyasının müasirlik dərəcəsinə və gələcəklə əlaqələrinə zərrə qədər də təsir etməyib" [30, s.21] 60-ci illər poeziyasını birmənalı olaraq modernist ədəbiyyat hesab etmək olmasa da, bu poeziyanı yenilikçi adlandırmamaq da, bir o qədər də, doğru deyil. Bu dövr poeziyasının əsas xüsusiyyətlərinə insanın ekzistensialist başlanğıcının özünü göstərməsi, insanın ön plana çəkilməsi, öz daxilinə enmə, "mən" faktorunun əhəmiyyət kəsb etməsi aid edilir. İnsan konsepsiyanın qabardılmasını, insana marağın ön plana keçməsini yenilik əlamətləri kimi qəbul etmək mümkündür. 60-ci illər poeziyası insan haqqında düşünmək, onun maraqlarını, hislərini, düşüncələrini ön plana gətirmək ilə diqqət çəkir. Rəsul Rzanın yaradıcılığına nəzər saldıqda insan faktorunu, məzmununda insan anlayışı olan bir

çox şeirləri görmək mümkündür. Bu şeirlərin nəinki məzmunu, habelə, adlarında da "insan" adını görmək olur. Şairin "Burda bir insan ölüb", "Bir gün də insan ömrüdür", "Açın qapıları insan gəlir", "İnsan haqqında", "Yaşayan insandır", "İnsanlar" adlı bədii nümunələrində insanın ağrısı, kədəri, insanlara və insanlığa qarşı edilən laqeyd münasibət, insan fəlsəfəsi poetik nümunənin, bədii mətnin əsasını təşkil edir, mərkəzə gətirilir.

R.Rza "Bir gün də insan ömrüdür" adlı əsərində XX əsrin insanını təsvir edir. Dövrün insanının düşüncələri, mənəvi aləmi, istəkləri, zəngin daxili aləmi, həyat sevgisi poemada uğurla qələmə alınır. Bu poemada insanın daxili zənginliyi, sevgisi, duyğu və düşüncələri səmimi formada qələmə alınır.

Yarpaqların sayı qədər

üstə gəl "bir"

öpürəm,öpürəm!

sağ ol,körpəm! [69]

Bu misralar zəhmətkeş, çox işləyən atanın bütün yorğunluq və gərgin iş qrafikinə rəğmən balaca qızına göstərdiyi qayğının, ona bəslədiyi səmimi və dərin sevgisinin bədiiliklə və səmimi formada qələmə alınmasıdır.

Rəsul Rzanın 1960-cı ildə qələmə aldığı "Rənglər" silsiləsinə daxil olan şeirlərində də fərqli baxış bucağı özünü göstərir, həyata, insana, dünyaya dair şair tərəfindən verilən individual yanaşma, fərqli dərketmə və analiz nümunələri öz əksini tapır. Tədqiqatçı Ə.Əsgərli belə qeyd edir: "R.Rzanın insan fəlsəfəsi – təfəkkür, idrak fəlsəfəsi "Rənglər"də kamala dolur, müdriklik aşılayır. Bu, dünyaya, həyata, zamana, ömrə zirvədən baxışdır" [19, s. 236-237]

Rənglərin də musiqi kimi ahəngi var.

Ağrının, sevincin, ümidin də rəngi var.

Açıldıqca açılır, əlvan səhifələri rənglərin.

Canlanır gözümüzdə rəngi

ömrün, mübarizənin,

qəlbin, nifrətin,

gecənin, səhərin

və insan taleyinin. [46, s.143]

Rənglərin xüsusi məna qatına yüksəlməsi, gördüyümüz, yaşadığımız hər bir şeyin rəngi olması, hətta insan taleyinin də özünəməxsus rəngə sahib olması monoton, təkrəngli olan bütün şeylərə qarşı edilən etiraz səsi idi. Bununla insanın heç də bundan əvvəlki zamanlarda bəhs edildiyi kimi bütünlüklə xoşbəxt olmaması, üzdə görürən sevinc və xoşbəxtlik qatlarının, həm də kədər, qəm, hüzn, ağrı dərdlərlə də yüklənməsi bəlli olur.

Burada hər rənglə əlaqədar müxtəlif fikirlər əks olunur, şair rənglərə özünəməxsus, fərqli yanaşır, onları şərh edir, öz təəssüratlarını bölüşür. Bunlarla birgə o rənglərlə insan həyatı, hisləri, düşüncələri ilə əlaqə yaradaraq insanın sevincini, xoşbəxtliyini, kədərini ifadə etməyə səy göstərirdi. Şair daim gördüklərimizi fərqli formada görməyə, fərqli anlamlar yükləməyə təşviq edirdi. Rəsul Rza "Rənglər" silsiləsində təkcə neqativ, kədərləri məqamları deyil, xoşbəxt, xoş anları, müsbət hiss və duyğuları da özünəməxsus tərzdə şərh etmişdir. Burada həmçinin, təsəlli, ümid, ən təbii insan hisləri də əks olunur, ümidin, arzunun, kədərin və sevincin rəngi canlandırılır. "Mavinin təsəlli çaları" hissəsinə diqqət edək:

Mərəzlərin ən dəhşətlisi:

mütiliyə bəraət hissi.

Yükü Təbrizdə qalmış dəvənin

bir gün gələcəyinə ümid.

Aldanışın şirin zəhəri. [57]

Bir çox tətqiqatçılar bu əsəri araşdırmış, bəziləri "Rənglər"i modern poeziyanın ilk nümunələrindən biri kimi qiymətləndirmişdir. Lakin, hər bir halda, Rəsul Rzanı milli poeziyada modern şeirin banisi hesab etmək, tam olaraq, doğru olmazdı. "

Modernist yuxusundan oyanmış insandır – o, dünyanı özündə kəşf edir və öz içində yeni, modern bir dünya modeli qurur. Psixoanaliz dili ilə desək, ekstravert (çölə yönəlik) realizmin əksinə olaraq, modernizmin introvert (içə yönəlik) səciyyəsi, onun Coys, yaxud Kafkada olduğu kimi bəzən fantosmoqorik psixologizmlə şərtlənməsi də bununla bağlıdır. Çünki modernizmdə zahiri və virtual gerçəklik birləşir – dünya insana sığır, insan dünyaya çevrilir. ” [9, s.300] Rəsul Rza yaradıcılığında isə ümumi insan konsepsiyası ön plandadır, fərdi insan qavramı və maraqlı isə önə çıxmır. Lakin Rəsul Rza poeziyada dəyişiklik lazım olduğunu duyan ilk şairlərlərdən idi və şeirin vəznini, məzmununu, intonasiyanı fərqli istiqamətə apardı.

Azərbaycan ədəbiyyatında Rəsul Rzadan sonra F.Qoca, Ə.Kərim, Ə.Salahzadə, Ə.Kərim, İ.İsmayılzadə kimi şairlərimizin yaradıcılığına nəzər saldıqda yenilik əlamətlərini görmək mümkün olur.

Əli Kərim yaradıcılığında “Kürə yağış yağırdı”, “Xətlər variasiyaları” silsiləsinə daxil olan şeirləri, “Fraqmentlər” kimi ədəbi nümunələrində modernist, yenilikçi düşüncənin əlamətləri özünü göstərirdi. Bu nümunələr həyata, həyat hadisələrinə, ənənəvi reallıqlara qarşı çıxan, onları dağıdan, fərqli baxış bucağından yanaşan və yeni mənalar yükləyən poetik nümunələr idi. Bu səbəblə onları təkcə ənənəvi şeirin hüdudları ilə məhdudlaşdırmaq mümkün deyil.

Altı yüz ildir bəşər

ağrılardan inildər

Altı yüz ildir bəşər

düşünər,

çatmaz yenə

Məşəqqətli ölümün

Nəsimi zirvəsinə. [77]

Əli Kərimi modernist şair hesab etmək mümkündür. O şablon ifadələrdən, qəlibləşmiş fikir və söz üsullarından imtina edirdi. O, bənzətmələrdən daha çox bir-

biri ilə uyğunluğu olmayan nəsnələrin görünməyən tərəflərini, üzdə olmayan məqamlarını qələmə alırdı. Şair “Əllər”, “Daş”, “Babəkin qolları”, “Zaqsda” kimi şeirlərində də ilk baxışda nəzərə çarpmayan məqamları ön plana çıxarır, diqqət yönəltdiyi məsələlərə fərqli bir ağırlıq, dərin məna yükləyirdi.

Artıq poeziyada düşüncə gücü, sorğulamaq adəti, kortəbii inanc yerinə, həqiqət axtarışı ortaya çıxırdı. İstər dünya, istər yaradılış, istərsə də insanın özü haqqında özünə və cəmiyyətə ünvanladığı suallar və bunu axtarış cəhdləri poeziyada yenilik idi.

Dünya başdan-başa səadət imiş,

Görəsən heç bir də olarmı yenə?

Dünya başdan-başa nə imiş, dedin?

Dünya başdan-başa nə imiş, de, nə? [71]

“60-90-cı illər poeziyasında modernist təmayüllü şeirin aparıcı mövqe qazanmasını iddia etmək yanlışlıq olardı. Çünki bu istiqamət hələ öz başlanğıc mərhələsini yaşayırdı, elə yenilikçi və novator şair kimi tanınan Əli Kərimin, Fikrət Qocanın, Ələkbər Salahzadənin, Vaqif Səmədoğlunun, Fikrət Sadığın şeirlərində bu istiqamət yalnız birxətli inkişaf edirdi. Ancaq burada həmin şeirləri ayrıca bir təmayül kimi fərqləndirən, ənənəvi şeirdən ayıran cəhətlər göz qabağında idi.” [53, s.49]

60-cı illər poeziyamız fərqli lirika nümunələri formasında ortaya çıxır. Bunu təkcə həmin illərdə ədəbiyyat aləminə addın atmış yeni şairlərin yaradıcılığı əsasında müəyyənləşdirmək olmaz. Eyni zamanda, sovet ideologiyasının təbliğatçıları kimi bilinən şairlər belə 60-cı illərdən sonra yeni baxış bucağı və fərqli yanaşmalarla ədəbiyyata gələ bilirlər.

60-cı illərdən tamamilə modernizm mərhələsi kimi bəhs etmək mümkün deyil. Bu illər modernizmin əsasının qoyulduğu, ona keçid anı kimi qiymətləndirilir. Bu dövrdə şairin öz maraqları, fərdi düşüncələri, “mən” obrazı arxa planda olur, ictimai məsələlərə, ictimai-sosial reallıqlara münasibət, baxış əsas plana keçirdi. Artıq şairin

öz daxili düşüncə və istəkləri belə cəmiyyətin istəkləri və baxışları fonunda, onların problemlərinin həllinə yönəlmiş formada əks olunurdu.

1960-1980-ci illərdə sərbəst şeirin işlənmə dairəsi genişlənmiş, bu vəzndə yazılmış şeirlərə müəyyən qədər üstünlük verilmişdir. Bu zaman təkcə forma, vəzn dəyişikliyi deyil, düşüncə dəyişikliyi, fikirlərin sərbəst ifadəsi də özünü göstərir. Daha sonra, 1990-cı illərdə mövzular daha fərqli, yeni, müxtəlif olsa da, insanı mərkəzə qoymaq, ona yeni çalarlar vermək, yeni insan konsepsiyası yaratmaq zəminini 1960-80-ci illərin poetik təcrübəsindən, həmin illərdə qələmə alınan şeirlərdən alırdı.

1990-cı illər ədəbiyyatı ədəbi prosesdə əsaslı dəyişikliklər yaradırdı və bununla bərabər ədəbiyyatın qarşısında yeni tələblər, vəzifələr ortaya çıxırdı. Bunların reallaşması problemlər də yarada bilirdi. Keçid dövrünün çətinliyi, əziyyətləri ədəbiyyata da öz təsirini göstərmişdi. Həmçinin, 90-cı illərdə baş verən siyasi hadisələr, bu mürəkkəb vəziyyət ədəbiyyata, incəsənətə yeni istiqamətdə irəliləməyə şərait yaratmırdı, əngəl törədirdi.

1990-cı illərdən etibarən poeziyamızda modernizm inkişaf etməyə başladı. Bu dövrün poeziyası ilə əlaqədar olaraq bir çox tətqiqatçılar araşdırmış, öz fikirlərini qələmə almış, formalaşmış təmayülləri bir neçə qrupa bölmüşdülər. “Kommunist partiyasının süqutundan sonra cəmiyyət radikal surətdə çoxpartiyalı sistemə keçdiyi kimi, sosialist realizmi metodunun rəsmi hökmfərmalığına son qoyulması da, birbirindən kifayət qədər aydın seçilən bir-neçə yaradıcılıq metodu istiqamətini üzə çıxardı və 90-cı illər ədəbiyyatımız bu metodların mürəkkəb, qarşılıqlı münasibətləri fonunda araşdırılmalıdı.” [13, s.14]

Realizm, simvolizm, modernizm və postmodernizm cərəyanları həmin dövrün başlıca cərəyanlarından hesab olunurdu. Postmodernizm isə 1990-cı illərdən etibarən poetik düşüncəni gücləndirdiyi üçün bu dövrdə xüsusi əhəmiyyətə malikdir.

Bu dövr poeziyasında modernist şeirlərdə özünü göstərən ümumi bir məzmun altında birləşməyən fikirlərin ardıcıl düzülməsi, bir mövzudan digərinə sürətli keçid bu şeirləri fərqləndirən əsas xüsusiyyətlərdən idi. Postmodernist şeirlərdə isə lirik qəhrəman bu cərəyana xas olan parodiya, ironik yanaşma ilə modernist poeziyanın

lirik obrazından fərqlənirdi. Postmodernizm bundan əvvəlki düşüncə tərzindən fərqli olaraq ağlın, zəkanın təntənəsinə, kamil insan obrazının vacibliyinə inanmırdı. İnsanın kamilləşməsini əhəmiyyətsiz və puç hesab edən bu cərəyan insanın şəxsi inkişaf və kamillik yoluna istehza ilə yanaşırdı. Oyun effekti, müəllifin ölümü, parodiya, intertekstuallıq, dekonstruksiya, ironiya kimi səciyyəvi cəhətlər postmodernizm estetikasının əlamətləri kimi ortaya çıxırdı.

Postmodernist qəhrəman inamını itirmiş, nizamsızlığı qəbul edən qəhrəmandır. Bu ümidsizlik və pessimizmin səbəbi isə, həm də, maarifçilik ideyalarının özünü möhkəmləndirə bilməməsi, ağlın süqutu ilə əlaqədar idi. Ümumi anlamda və bəşəri tənhalıq ədəbiyyata da sirayət etdi və insanın yadlaşmasını, özündən uzaqlaşmasını şərtləndirdi. Postmodernistlər üçün kainat, dünya qavramı səthidir və dünyadan bezmiş, yorulmuş qəhrəmanlar üçün bəşəriyyət haqqında düşünməyə dəyməz. Bu qəhrəman həyata, yaşamağa ciddi yanaşmadığı kimi, ölümə də açıq gözlə baxır, ondan qorxmur, ölümə belə ironik yanaşır.

yaxşı bir təklifim var
gəlin özümüz öldürək…
gözəldir təbəssüm dodağında
atılmaq yüzüncü mərtəbədən
sanki uçursan
ya da
alnında tapanca lüləsi və
kiçik bir çaxmaq işarəsi
həyatın mənasızlığı. [28, s.13]

Hər nəsli formalaşdıran, bədii düşüncə tərzini müəyyən bir biçimə salan zaman məfhumunu diqqətdən kənarda qoymaq olmaz. Zaman sadəcə tarixi bir göstərici deyil, həmçinin, ədəbiyyatın inkişaf dinamikasını da əhatə edir. Müasir yazıçıların

keçdiyi yolun arxa planında torpaqları işğal altında olan, düşmən hücumuna məruz qalan, parçalanan Azərbaycanın reallıqları, tarixi həqiqətləri, baş verən faciəvi və sarsıdıcı situasiyalar, sosial-iqtisadi, siyasi, mənəvi sıxıntıların, problemlərin psixoloji aləmdə baş qaldırdığı dəyişikliklər dayanır. Yurdun, vətənin itirilməsi, zorakılıq, müharibə, şəhidlik kədəri, soyqırım, baş verən xaos, amansızca törədilən qətllər buna şahid olan insanın ruhi və mənəvi aləminə, psixologiyasına təsir göstərir və bu ədəbiyyat aləmində də özünü büruzə verir.

Dayandırın yağışı
Günəşi susdurun
Biz köpəkləri təpiklə vurub öldürən
Amansız adamların arasında doğulmuşuq…
Qoruyun özünüzü…
Atanızı şah,
Övladınızı kölə olmağa qoymayın. [55]

60-ci illərdən başlayaraq milli ədəbiyyatımıza yeni nəfəs, fərqli baxış, yeni düşüncə sistemi gətirən şairlərdən Vaqif Səmədoğlu və Ramiz Rövşənin adını xüsusilə qeyd etmək vacibdir. İstənilən mövzuda yeni yanaşma tərzi ilə oxucunu düşündürməyi, streotipləri qırmağı, qəliblərdən çıxmağı bacaran bu şairlər ədəbiyyatda özünəməxsus yer tutmağı bacarmışlar.

Qeyd olunan dövrdə Allaha inam, dar və əlacsız məqamda Tanrıya üz tutma, ondan mədəd umma anlayışı hələ də dəyişməmişdi. Öz bəxtlərindən şikayət edən, həyatın keçiciliyindən, dünyanın çətinliyindən ümidsizliyə qapılan və ruhdan düşən şairlər son məqamda Allaha üz tuturdular. Ramiz Rövşən və Vaqif Səmədoğlu yaradıcılığında da Tanrı və ölüm mövzusu paralel olaraq inkişaf edir. Ramiz Rövşən müsahibələrində özü də qeyd edir ki, Vaqif Səmədoğlu da insanı Allah ilə yaxınlaşdıran, lakin həm də azad söz adamı idi. Onun şeirlərində etiraz səsi ilə birgə sevgi və ümid sədaları da yüksəlirdi. Ümumiyyətlə hər iki şair Allaha inam və sevgi göstərməklə bərabər, ona etiraz səsini də yüksəldə bilən, onunla söhbət etməyə cəsarət göstərən söz adamları idi.

Ay Allah,

al bu qələm,

bu da alnım!

Fikirləş,

tələsmə,

yaxşı bir şey yaz. [50]

Vaqif Səmədoğlu qələmə aldığı bu misralarda Tanrıya ərk edir, onunla dostu kimi danışır, canlı bir varlıq kimi ünsiyyət qurmağa çalışır. Bu misralarda həm taleyindən şikayət edən və yeni bir həyat, xoş bir tale arzulayan bir insanın xahişi, bunun reallaşacağına dair olan ümidi, həm də bunu edə biləcək yeganə varlığın Tanrı olması ilə bağlı inam özünü göstərir.

Tanrıya baxış məsələsi müxtəlif dövrlərdə fərqli formalarda ortaya çıxırdı. Orta dövrlərdə Tanrının mədhi, tərənnümü, Tanrının qüdrətinin vəsf edilməsi məsələsi ön planda idisə, sovet ədəbiyyatı dövründə Tanrıdan uzaqlaşma, ondan imtina motivləri qabarıq formada idi. 70-ci illərdən başlayaraq isə Tanrı göylərdən yerə endirilir, yeni yanaşmalarda poeziya insanları Tanrı ilə söhbət edir, ona şikayət və müraciətlərini edirdilər. Ramiz Rövşənin "Oyun" şeiri buna sübutdur:

Bir qış günü yatdım, ancaq

Durdum gördüm, payızdı.

Bu kartları dəyiş, Allah,

Mən bu ömrü uduzdum. [43, s.317]

Burada şair Allaha, taleyinə etiraz edir, həyat yolunu sadə kart oyunu ilə eyniləşdirir. Lakin həyat bir dəfə oynanılan "oyun"dur və uduzulan ömrün təkrar şansı, yenidən fərqli formada yaşamaq imkanı mümkün olmur. Buna baxmayaraq şair Tanrıya müraciət edərək ondan göydən yerə enməsini, kartları bir daha qarışdırmasını, yeni bir "həyat oyunu"nu yaratmasını tələb edir. Sonda isə oyunu, daha dəqiq desək, həyatını tərk etməyə və Tanrıya "mənsiz oyna" deməyə cəsarət tapa bilir.

Ramiz Rövşənin "Gizlənməyə bir yer göstər, gizlənim" şeirində bilərək gizlənmə, görünməzliyə, bilinməzliyə can atma məsələləri nəzərə çarpır. Poeziyada

bu durumun özünü göstərməsi, gizlənməyə, kimsəsizliyə, tənhalığa meyil etmək 1970-ci illər poeziyasının ümumi xarakteristikasını əhatə edirdi. Bu şeirdə şair obrazı gizlənməyə yer arayır, axşam da, səhər də, hər kəsdən də, hətta özündən belə gizlənmək istəyir. Özü ilə, həyat ilə, ölüm ilə üzləşməyə, qarşılaşmağa qorxan, cəsarət edə bilməyən lirik qəhrəman Tanrı ilə ünsiyyət etmək istəyəcək qədər də cəsarətlidir:

Ömürdən də, ölümdən də
gizlənim.
Bir yer göstər,
nə ev olsun, nə qəbir,
Bir daş altda, bir daş üstdə,
gizlənim
…Allah, harda gizlənmisən?
Cavab ver!… [43, s.245]

Ramiz Rövşənin poeziyasında şairin gizlənməsinin mümkün ola biləcəyi məkan belə tamamilə məhv olurdu. Bu tip şeirlərdə şairin öz "mən"indən qaçması, özündən uzaqlaşması halları nəzərə çarpacaq qədər aydın idi. İnsan, dünya, təbiət məfhumları, hər bir varlıq və istənilən məkan özünü boşluqda hiss edən şair üçün öz mövcudiyyətini itirmişdi.

Gəl əl ələ tutub gedək,

Gedək biz olmayan yerə.

Hər dərdi unudub gedək

Dərdimiz olmayan yerə. [43, s.318]

Ramiz Rövşən şeirlərində, müəyyən mənada, pessimizm, gələcəyə ümidsiz baxış, inamsızlıq, insanın sönük və məqsədsiz həyat keçirməsi məsələlərini də ön plana çıxır. Şairin "Bu ağac öləcək" misrası ilə başlayan şeirində ilk cümlədən etibarən bədbin, qəmgin notlar və ümidsizlik əlamətləri özünü göstərir. Lirik qəhrəmanın zənnincə ağacın, ağacın üstünə qonan quşun, quşa dən səpən qızın – hər

birinin üzündən- gözündən ölüm tökülür. Bu səbəblə qızı sevməyi, quşa baxmağı, ağaca çıxmağı əhəmiyyətsiz hesab edən obrazın sabaha ümidli olmadığı və müsbət düşüncələrlə özünü zənginləşdirmədiyi bəlli olur. Pessimizm, sonrakı peşmanlıq və ümidsizlik şeirin və şeirin qəhrəmanının əsas məğzini təşkil edir.

Quş uçdu isti bir yerə,

Qız getdi… qız getdi ərə,

Ağac da ki, durur hələ;

bir mənəm, bir də bu ağac.

Kəndir tapıb, bu ağacdan

asılmağa qaldı əlac… [43, s.421]

Şeirdə "yeni" və ya "yenilik" məfhumunu ənənə prizmasından qiymətləndirmək həm də sosial dəyişikliyin estetik izlərini izləmək deməkdir. Çünki poeziyada yaşanan dəyişikliklər əsasında fərdi və ictimai dəyişikliklərin yaratdığı inteqrasiyalı təsirlər mövcuddur. Şeir bu təsirlərin estetik əks etdirmə sahələrindən biridir.

Cəmiyyətdə yaşadılan və yaranan yeni ideyaların, fikirlərin Ramiz Rövşən şeirlərində əks etdirilməsi, ictimai-siyasi mühitin imkan verdiyi qədər bu ideyaların daxili mahiyyətini və məzmununun təsviri cəmiyyəti düşündürən suallara yüksək sənətkarlıqla və cəsarətlə verilmiş cavablardır. Poeziya janrının sosial yönünü digər ədəbi janrlarda olduğu kimi məzmuna yanaşmada da görmək olar. Bununla belə demək olar ki, şeirin ictimai ölçüsünü göstərmək üçün təkcə məzmun kifayət etmir, həm də forma çox önəmlidir.

## 1.2. Ramiz Rövşən şeirinin mövzu dairəsi

Yenilikçi şair olan Ramiz Rövşən ilk şeirləri, ilk kitabı ilə birlikdə ədəbiyyata yeni, orijinal, fərqli nəfəs verdi. Ramiz Rövşən qələmə aldığı ilk şeir nümunələri, birinci kitabı ilə belə ədəbiyyatımızda yenilik yaratmağı, orijinallığı ilə seçilməyi bacardı. Onun yazdığı poetik nümunələr həm anlaşıqlı, həm də mürəkkəbdir. Şairin uğurlu olmasının səbəblərindən biri də onun daim yenilik, müasirlik axtarışında olması idi. Bununla yanaşı, o, heç vaxt klassik ədəbiyyata qarşı çıxmamış, dahi ədiblərimizin yazıb-yaratdıqları əvəzsiz nümunələri inkar etməmişdir. Ramiz Rövşən ənənələrə söykənərək yeni baxış formalaşdırmış, bu ənənələri zənginləşdirmiş, təkmilləşdirmiş, köhnəliyə müasirlik prizmasından baxmışdır. "Klassik ölçü və qəliblər hisləri dolğun şəkildə ifadə etməkdə məhdudiyyət yaradır. Bu baxımdan şairin etdiyi yeniliklərdən biri də şeirimizi təsvirçilikdən və tərənnümçülükdən qurtarmasıdır. O, bildirirdi ki, şeirdə təsvirlə yanaşı hərəkət də olmalıdır" [22]

Şeir yazmağa yeniyetməlik yaşlarından başlayan Ramiz Rövşən ilk şeirlərini daha çox sevgi mövzusuna həsr etmişdir. Elçin "Tənqid və ədəbiyyatımızın problemləri" kitabında Ramiz Rövşən haqqında yazır: " Ramiz Rövşən də vaxtı ilə Ramiz Müskanlı imzası ilə şeirlər çap etdirərdi. Həmin şeirlər indi yalnız ona görə yada düşür ki, Ramizin bu gün yazdığı şeirləri oxuyub heyrət edirsən: doğrudanmı söhbət eyni müəllifdən gedir? Axı onun cəmi üç-dörd il bundan əvvəlki şeirləri bu gün Ramizin hələ tam püxtələşmiş halda olmasa da, əldə etdiyi bədii-estetik dərinliyi, poetik özünəməxsusluğu xəbər vermirdi. Məsələn, biz üç-dörd il bundan əvvəl heç cür təsəvvür edə bilməzdik ki, "ortabab" şeirlərini oxuduğumuz Ramizin "Bir yağışlı nəğmə" adlı kitabçası ayrı-ayrı çatışmazlıqlarına baxmayaraq, cavanların poeziya aləmində hadisəyə çevriləcək." [12, s.34]

Əlbəttə, "16 yaşlı Ramiz"in şeirləri artıq yaşa dolmuş və kamilləşmiş Ramiz Rövşən şeirləri ilə müqayisədə daha bəsit qalsa da, hər bir halda,

Ülgüc dəyməmişdi üzümə hələ
Sən keçdin ömrümdən bir ülgüc kimi [45, s.110]

bənzətməsini edə bilən, sevgisini, sevgisindən (bəlkə də qarşılıqsız sevgidən, ayrılıqdan) doğan kədəri bu formada ifadə etməyi bacaran, bədii təxəyyülündən və bədii təsvir vasitələrindən uğurla istifadə edən yeniyetmə Ramizi heç də uğursuz şair hesab etmək olmazdı.

"Bəzən gəncliyimdə yazdığım şeirlərə baxıram, əlbəttə, müxtəlif mənalara yoza bilərəm, amma bəzi məqamlarda nə demək istədiyimi anlaya bilmirəm. Çünki o vaxt başqa adamıydım, indi başqa. Zahirən də, daxilən də çox şey dəyişib. Etiraf edim, cavan Ramizi xatırlayanda anlayıram ki, şair haqqında təsəvvürlərimi ən çox dağıdan elə özüm olmuşam. 50 il bundan əvvəl ağlıma gəlməzdi ki, hazırkı yaşımda və görkəmimdə də şair olar." [31]

Ramiz Rövşən hər yeni şeir kitabı yazıb çap etdikcə daha çox sevilir, daha artıq tanınmağa başlayır, şeirləri fərqli bir məzmun və forma ahənginə bürünür, daha dərin mövzulara toxunur və qələmə aldığı hər mövzuda düşünməyi və düşündürməyi bacarır. Ramiz Rövşən kamilləşdikcə, onun obrazları da kamilləşir, qələmə aldığı hər mövzuda öz fərqliliyini ortaya qoyur və hər kəs tərəfindən yazılmış bir mövzuya belə fərqli yanaşmağı bacarır.

"Sonralar şairin çox gec-gec olsa da kitabları nəşr edildi. Xüsusilə "Göy üzü daş saxlamaz"ı müəyyən mübahisələrlə qarşılandı... Və yadımdadır ki, Məmməd Arazın "Göy üzündə daş nə gəzir" məqaləsi həmin mübahisələri bir az da dərinləşdirdi. Ancaq bununla belə hər hansı mübahisə, müzakirə Ramiz Rövşənin nüfuzuna xələl gətirmək iqtidarında deyildi. O, artıq milli poetik təfəkkürün ruporuna, get-gedə yaşlaşmaqda, ədəbi zövqü ictimailəşib normativləşməkdə olan yaradıcı gəncliyin kumirinə çevrilmişdi." [11]

Şairin müxtəlif şeir kitablarındakı fərqliliklər təkcə şeirlərdə deyil, şeirlərdəki lirik qəhrəmanların duyğu və düşüncələrində, həyata baxışında özünü göstərir. 1970-ci ildə çap olunan ilk şeirlər kitabı "Bir yağışlı nəğmə"nin obrazları dünya ilə barışmaz mövqedə duran, üsyan, etiraz edən, cəsarətli qəhrəmanlardır. "Göy üzü daş saxlamaz" adlı ikinci kitabında isə qəhrəmanı nisbətən öz daxilinə yönələn, dünya ilə uyğunlaşmağa, barışmağa yönələn qəhrəmandır. Bu kitabda şair və şair obrazı əvvəlki kitaba nisbətən daha müdrikdir. Şairin növbəti illərdə qələmə aldığı şeirləri

və nəşr etdiyi kitabları isə fəlsəfi məzmunu ilə, insan mərkəzli olması ilə xüsusi seçilir.

"Mənim "Bir yağışlı nəğmə" kitabımla "Göy üzü daş saxlamaz" kitabımdakı şeirləri müqayisə edənlər hərdən deyirlər ki, sanki bu kitabları iki fərqli şair yazıb. Əlbəttə, bu belə deyil, o kitablar hər ikisi eyni şairindi. Amma o kitablarda şeirə fərqli yanaşma var… Onu da deyim ki, gəncliyimdə mən çox asan yazırdım. Sonra yazmaq mənim üçün çətinləşdi. Niyə çətinləşdi? Əslində cavanlıq şeirlərimdə də az-çox istedad filan öz yerində idi, amma sonra tale gəldi." [24]

İlk şeirlərini Ramiz Müskanlı imzası ilə qələmə alan Ramiz Rövşən ilkin vaxtlarda bir o qədər də diqqət mərkəzində olmasa da, daha sonra haqqında müsbət fikirlər yaranmağa başlayır. Ramiz Rövşənin yazdıqlarını təkcə "ədəbi tənqid" sahəsi deyil, Azərbaycanın bir çox yazıçıları, şairləri də qiymətləndirirdi. Azərbaycan ədəbi tarixində dərin iz qoymuş, əhəmiyyətli yer tutan bir çox şairlərimiz – Məmməd Araz, Fikrət Qoca, Bəxtiyar Vahabzadə, Nəriman Həsənzadə, Nəbi Xəzri, Qabil kimi dəyərli klassiklər onun şeirlərini, üslubunu, istedadını təqdir edirdilər. Ramiz Rövşəni və onun şeirlərini ilk dəfə tanıdan Əkrəm Əylisli, həmçinin, şairin 1970-ci ildə nəşr olunan kiçik kitabçasına ön söz də yazmışdı.

Şair öz şeirlərini qələmə alarkən bunu konkret oxucuya ünvanlamır. O, sadəcə yaxşı şeir yazmağa, düşüncələrini və fikirlərini şeirdə ən mükəmməl formada əks etdirməyə çalışır. Buna baxmayaraq, şair oxucuların fikrinə, onun yaradıcılığına verdiyi qiymətə biganə qalmır. Bir əsəri müxtəlif oxucular mütaliə edərək həm bir-birlərindən, həm də yazıçının özünün düşündüyü və nəzərdə tutduğundan fərqli nəticəyə gələ, fərqli anlamlar, müxtəlif təhlillər ortaya qoya bilər. Ramiz Rövşən düşünür ki, "bəzən şair öz şeirlərində nələri dediyini özü bilmir" [15] O qeyd edir ki, "Mən şeirləri konkret oxucuya yazmıram. Ümumiyyətlə, oxucu şair münasibətləri çox təhlükəlidir. Çünki səni sevən oxucuların olduğunu düşünərkən, bir gün o sevgini itirmək qorxusunu duyacaqsan. Beləliklə də, elə o oxucuya uyğunlaşmağa başlayacaqsan. Bu qətiyyən düzgün deyil. Şairliyin konkret ünvanı ola bilməz" [15]

Şair hesab edir ki, insanın özünə qarşı səmimi olması, başqalarına qarşı səmimi olmasından daha zəruri, daha vacibdir. O düşünür ki, şair oxucunun xoşuna gəlmək

üçün yazıb-yaratmamalı, hadisələri, həyatı necə duyur, necə hiss edirsə, elə də ifadə etməlidir. O deyir ki, “Nəinki şair, ümumiyyətlə, insan özünə qarşı səmimi olmalıdır”. [48]

Ramiz Rövşən şeirlərində kədər var, ağrı var, bilməyin, dərk etməyin səbəb olduğu yaralanma var. Bu şeirlərlə tanış olduqca, bu həqiqətlərlə üzləşdikcə, oxucu da şairlə eyni kədəri yaşayır, oxucu da şair kimi əzab çəkir. Bütün bunlara baxmayaraq, şairin ən sevdiyi və özünə yaxın hiss etdiyi dahi rus yazıçısı F.M.Dostoyevskinin də dediyi kimi; “İnsan ruhunu ucaldan bir əzab, ucuz bir xoşbəxtlikdən daha yüksəkdir” [75] Ədibin şeirlərini xilasedici mövqeyində görən oxucular da var. “Xaricdə yaşayan soydaşlarımızdan biri Ramiz Rövşənə deyib ki, şeiriniz bizi çətinlikdən xilas etdi. Şair onlardan soruşub: "Bəs şeirlərim Ramiz Rövşəni niyə xilas etmir?” [76]

Şairin qələmi nə qədər mükəmməl olsa da, yazdıqlarında dərin məna yükü özünü göstərsə də, onun daxili dünyası, fəlsəfəsi, həyata baxışı daha zəngin, daha dərindir. Müsahibələrinin birində şairdən ən gözəl şeirinin hansı olduğunu soruşduqda, o, ən gözəl şeirini hələ yazmadığını qeyd edir.

Ramiz Rövşən poeziyasının yeniliyi ənənəyə münasibətin konkretliyində və aydınlığında idi. “Yenilik ilk növbədə, ənənəni qəbul etmək, məhz onun zəminində yetişərək, həm də ənənə buxovunu qıraraq poeziyada yeni poetik konstruksiyalar qurmağa cəhddir. Həyata, cəmiyyət hadisələrinə orijinal, yeni yanaşma tərzi təqdim olunan belə şeirlər yeni dünyagörüşün, çağdaş bədii düşüncənin və poetik üslubun ifadəçisi olmaqla bərabər özündə mənsub olduğu zamanın hərəkət ritmini daşıya bilirlər” [3]

Poeziya sərhədlərini müəyyən edən mühüm məsələlər sırasında poetik təfəkkür və yanaşmanın ənənəyə baxışı müəyyən mənada cəmiyyətin dəyərləri və tarixilik ilə qurmaq istədiyi təmas formasını göstərir. Bu baxımdan, Ramiz Rövşənin poetik təfəkkür tərzi o qədər genişdir ki, ötən əsrdə yazdığı şeirlərində təsvir etdiyi sevgi, duyğu, azadlıq, hünər, doğal hisslər və s. mövzular indiki dövdə belə aktual olaraq qalmaqdadır.

Ramiz Rövşən "Sevgi açarı" kitabında qeyd edir ki, "Poeziyanı müxtəlif mövzulara bölmək mənə həmişə qeyri-ciddi görünüb. "Təbiət şeirləri", "sevgi şeirləri", "vətən şeirləri", guya sevgisiz və ya vətənsiz şeirlər də var" [45, s.9]

Buna baxmayaraq, müəyyən bölgüyə əsaslanaraq onun şeirlərini bir çox mövzuya ayırmaq olar. Ramiz Rövşən ədəbi yaradıcılığı boyu ölüm, Tanrı, Vətən, sevgi, qadın, insan, tənhalıq, təbiət, və s. kimi bir çox mövzulara toxunmuş, hər birini özünəməxsus şəkildə şərh etmiş, ədəbiyyatımızda xüsusi yeri olan bir-birindən dəyərli və fərqli poeziya nümunələri ərsəyə gətirmişdir.

Ramiz Rövşən yaradıcılığında sadalanan mövzulardan insan, yaradılış, ölüm mövzusuna diqqət yetirikdə görürük ki, o, şeirlərində üsyan etməkdən, bu barədə düşünmək və düşündürməkdən çəkinmir.

Şirin-şirin yuxudaydıq,

Bir zalım oyatdı bizi.

Anaların qucağından

Bu dünyaya atdı bizi. [43, s.97]

Dünyanın təzadlı məsələlərini, gəlmişi-keçmişi, köhnəni-təzəni, gözəlliyi, eybəcərliyi, insan ruhunun ən yüksək və kiçik duyğularını canlandırmaq Ramiz Rövşən poeziyasının sütununu təşkil edir. Bu aləmdə var olan hər şey böyük sənətkarı dərin düşünməyə vadar edir. Bu düşüncə Ramiz Rövşən poeziyasının geniş oxucu kütləsi tərəfindən sevilməsinə səbəb olmuşdur.

Şair bu dünyaya göz açmazdan əvvəl ruhun sakitliyindən, şirin yuxutək xoş, qayğısız "həyat"dan bəhs edir və doğuluşu, yaradılışı şirin bir yuxudan oyanmaq kimi təsvir edir. Ən gözəl yuxulardan oyanmaq istəməmək, oyandıqdan sonra yaşanılan təəssüf hissi və reallıqla üzləşmək, dünyaya göz açıb həyatı dərk edən, həyatın hər üzü ilə tanış olan insanın kədəri ilə səsləşir. Baxmayaraq ki, bu "oyanış" insana real olaraq yaşadığı həyatı bəxş edir, şairin lirik qəhrəmanı bunu istəmir, demək ki, yaşadığı dünyanı o qədər də sevmir. Dünyaya gəlməyin bir seçim olmadığını, "zalım tərəfindən oyadılmaq" nəticəsində baş verdiyini deyən qəhrəman ömrün bir hədiyyə,

bəxş olması ilə yanaşı, əzablı, keşməkeşli və çətin sınaqlarla dolu bir yol olduğunu da dərk edir.

Mərhəmətli, rəhmli olaraq zehnimizdə möhkəmlənən Tanrı obrazı, zalım, qəddar olaraq təsvir olunur. Lakin demək olmaz ki, qəhrəman Tanrını sevmir, onun mərhəmətinə şübhə edir. Bu həyatın mahiyyətini dərk edən, dünyanın kədərli, qayğılı, məşəqqətli tərəflərini də kəşf edən insanın poetik üsyanıdır. "Deyim ki, mənim gəncliyimdə ən çox küsdüyüm adam atam olub. Amma bu dünyada ən çox sevdiyim adam da atam idi. Mahiyyət etibarilə, insanın ən böyük ərki də, sevgisi, incikliyi də ən yaxınına, doğmasına qarşı olur. Bir şeirimdə də yazdığım kimi; "İlahi, küssəm də, səninəm yenə". Əslində, bu mənim Allahdan yox, özümdən küsməyimdi. İndi ki bu məqama gəldik, mən heç vaxt dilimə gətirmədiyim bir şeyi demək istəyirəm; cavanlıqda, həyatımın çox çətin, ağır bir vaxtında, demirəm ki, qeybdən nəsə bir səs eşitdim, yox, amma nədənsə, birdən məndə belə bir düşüncə yarandı ki, Allah məni sevir. Mən buna inandım və təskinlik tapdım." [24]

"Qatdı bizi qabağına,  əlində oynatdı bizi" [43, s.97] deyən qəhrəmanın özünü "oyuncaq"  kimi hiss etməsi taleyinə boyun əyməsini, azad iradənin olmaması, özünü zəif, gücsüz olaraq hiss etməsini göstərir.

Biz ki yol nədi, bilməzdik

Biz ki öl nədi, bilməzdik

Bilsək,  dünyaya gəlməzdik

Analar aldatdı bizi. [43, s.97]

Keçilən ömür yolunun, bu yolun qaçılmaz sonu olan ölümün, həyat və dünya ilə tanışlığın səbəbi olan yaradılış, həm də aldanış olaraq qiymətləndirilir. Bütün bunları bilmədən, xəbərsiz, istəksiz və iradə xaricində  dünyaya gəlməyin həm də anaların "günahı" olduğu, anaların da Tanrı qədər "məsuliyyət daşıdığı" vurğulanır.

Dünyaya üsyan edən şair başqa bir şeirində əlində olan, ona bəxş edilən ən sadə şeylər üçün belə şükür edir. Həyatın heç də tamamilə bərbad olmadığını, yaşamağın dəyərli və gözəl olduğunu başa düşür. O, nankorluq etmək istəmir və insanın sahib

olduqlarının dəyərini bilməsini vacib bilir, hər şeyin daha da pis ola biləcəyini dərk edir. “Şükür” şeirində şair obrazı hər ötən axşama, açılan səhərə, yəni yaşadığı hər günə, həyatda olduğu hər ana şükür edir.

Qapım döyülür deyəsən,

Cəlladmısan, əcəlmisən?!..

Hər kimsənsə, xoş gəlmisən,

Hər gələn qonağa şükür. [43, s.234]

Lirik qəhrəman həyatı sona çatdığında, artıq yaşamayacağını bildiyi anda belə şeytana lənət etməyi borc bilir və yenə də, Allaha şükür edir. “Allah ən böyük sevgidir” [24] deyir Ramiz Rövşən.

Ramiz Rövşən yaradıcılığında insan mövzusu bəşəridir, dünyəvidir. O insanları müəyyən kateqoriyalara bölərək ayırmır, dilinə, dininə, irqinə, millətinə əsasən fərqləndirmir. Bununla da, onun yaradıcılığında multikulturalizm əlamətləri də özünü göstərir. O bütün insanlara müraciət edir, şeirlərini hər kəs üçün yazır. Xristian dininin peyğəmbəri olan İsa peyğəmbərə şeir həsr edərək onu baş qəhrəman edən şairin “Çarmıxdakı İsa” şeiri bunun ən gözəl nümunələrindəndir. Şeir İsa peyğəmbərin dilindən yazılıb. Çarmıxa çəkilərək əzaba düçar olan İsa peyğəmbər ruhunun bədənindən ayrıla bilmədiyini, bu ağrının əziyyət olduğunu və bunun bitməsini arzulayır. Lakin istədiyi çarmıxdan azad olmaq, bu həyatı yenidən yaşamaq deyil. Həvarilərinin onu qaçırmasını, gizlətməsini arzulamır və öz taleyindən gizlənə bilməyəcəyini deyir. Dünya ilə son bağının qırılmasını, bu əzabın bitməsini və Tanrıya qovuşmağı arzulayan İsa peyğəmbər, Tanrıya qovuşarkən ruhunun azad olduğunu, rahatlıq tapdığını, ağrılarının bitdiyini dilə gətirir.

Ölüm deyilən şey son yuxudursa,

əgər yatmışamsa –

yuxum ağrıyır.

Çarmıxa çəkilən quru canımdı,

Bəs niyə görəsən ruhum ağrıyır?! [43, s.88]

Başqa bir şeirində isə Ramiz Rövşən həyatdan, dünyadan, dərdin çoxluğundan gileylənir. Yaradanın kənardan baş verənləri seyr etməsini, günahın, tamahın çoxluq təşkil etdiyini qeyd edir. Eyni zamanda, bu ağrılı, kədərli, dərdlərlə dolu olan dünyada öləcəyini bilə-bilə hələ də həyatla vuruşaraq, eyni zamanda, onu sevərək yaşayan insanları da yüksək qiymətləndirir.

…Min illərdi ölə-ölə,

Ölüm nədi bilə-bilə,

Doğulursa insan hələ,

İnsan Allahdan böyükdü… [43, s.236]

Ramiz Rövşən poeziyasında qocalıq, tənhalıq mövzusu, həyatı dərk edən kamil insan obrazı aparacı mövqe tutur. “Qocalıq” şeiri yaşa dolduqca həyatın reallıqlarını daha aydın dərk edən, tənhalığı, təkliyi, soyuq münasibətləri hiss edən qəhrəmanın şikayəti, kədəridir. “Tənhalıq başlayır burdan o yana” [43, s.16] – O tərəf, o keçid nöqtəsi haradadır, nə zaman başlayır? İnsan bəlli bir yaş dövrünə keçid etdiyi zamanmı qocalır, yoxsa tənhalığı duyması ilə başlayır hər şey? Dəyişən insanları, itirdiyi dostları gördükcə, özünü və dünyanı daha yaxşı tanıdıqca, həyatın yükünü çiyinlərində daşıdıqca hiss edir qocalığı? Ramiz Rövşən deyir ki, “qocalıq, bilirsiz, haçan başlayır? İnsan qocalıqla barışanda. Əgər insan qocalıqda barışmayıbsa, deməkki, hələ qocalmayıb. Qocalığın yaşa qətiyyən dəxli yoxdur.” [48]

Daha çoxlarıyla aram sərinlər,

Çoxları boyuma sevinməz daha.

23 yaşımda məni sevənlər

33 yaşımda sevəmməz daha. [43, s.16]

Yaş artdıqca, illər keçdikcə münasibətlərin zədələndiyini, ən doğmalardan, dostlardan belə səssizcə uzaqlaşdığını, həyatın daim dəyişkən olduğu həqiqətini dərk

edən lirik qəhrəman pessimist düşüncələrə qərq olur. "Məni sevənlərdən ötrü-ölüncə 23 yaşımda qala bilmərəm" [43, s.16] deyərək zamanın öz qanunları olduğunu, hər şeyə rəğmən öz axarı ilə getdiyini və dəyişikliyin zəruri olduğunu dilə gətirir. "Ustad deyir ki, biz maddiləşmiş dünyada yaşayırıq. Ramiz Rövşənə görə, gedən bizik, zaman deyil. Həyatda mövcud olan hər şey zamanın müxtəlif şəkilləridir." [23]

Bütün bunlara baxmayaraq, obraz üçün qocalıq bir cəza deyil. "Daha balta kəsməz ağlım kəsəni" [43, s.17] deyərək yaşa dolmağın həm də təcrübə qazanmağa səbəb olduğunu, daha müdrik, kamil, iti zəkaya sahib insana çevrilməyə xidmət etdiyini bildirir.

Yaşanılan ömrün bulanıq, aydın olmayan, dərk edilməsi, anlaşılması çətin bir şey olduğunu obraz yaşlandıqca, təkmilləşdikcə başa düşür.

İnsan həyatı boyunca bir çox şeylə ziddiyət içində, dalaşqanlıq, küskünlük, konflikt halında olur – yaşadıqları, yaşaya bilmədikləri, mühiti, yaşadığı dünya və daxili dünyası – özü ilə. Bütün bunları qəbul etmək, dərk etmək, dünya və daxili aləmi ilə barışıq halda yaşamaq isə dalaşmaq, şikayət və üsyan etməkdən daha çətindir. Şairin lirik qəhrəmanı bütün bunları dərk edəcək qədər kamil obrazdır. "İnsanlar bəzən özlərini sevə bilmirlər. Çünki insan özünü sevməyə səbəb tapa bilmir. Və özünü sevməyə səbəb tapa bilməyəndə başlayır nə vaxtsa sevdiklərilə dalaşmağa." [24]

İnsanın özü ilə barışmazlığı, özünün daxili iztirabı, ruhun bədəninə üsyanı "Qədrimi bilmədi bu adam mənim" şeirində də qəhrəmanın dilindən aydın verilir.

Bilmirəm hayandan tapdı ömrümü

Bir dəli at kimi çapdı ömrümü,

Dağlara-daşlara çırpdı ömrümü,

Qədrimi bilmədi bu adam mənim. [43, s.24]

Həyatdan, digər insanlardan narazılıq etmək, insanlardan layiq olduğun sevgini, dəyəri görmədiyini düşünmək və bundan şikayət etmək anlaşılan haldır. Hər şeydən bezdikdə, emosional çöküş yaşadığın və ən sevdiklərindən belə uzaq düşdüyün anda

üsyan edib özünə qapanmaq halları bir çox insanda baş verir. Bəs insanın üsyanı, hirsi özünədir və ona dəyər verməyən, qədrini bilməyən şəxs özüdürsə? İlk baxışda bu şeirdə də lirik qəhrəmanın başqa insandan bəhs etdiyini, şikayətinin başqa birindən olduğunu düşünmək olar. Bəs kim idi onun qədrini bilməyən adam? Burada şair obrazı cismindən fərqli bir varlıq kimi, özü deyilmiş kimi bəhs edir. Obraz qədrini bilməyən bu adamdan–yəni, özündən narazı, şikayətçidi. Ruhun daha uca, daha toxulunmaz bir məfhum olduğu, onu zədələyənin isə zahiri varlığı, cismi, bədəni olduğu aydın olur. Qəhrəman insan olmaqdan narazıdı, çünki insanın dağıdıcı, məhv edən, çətinlik törədən və əzablı tərəfini kəşf edib. Bununla yanaşı, o anlayır ki, insan əməlləri ilə ən böyük zərəri özünə - ruhuna edir və beləliklə daxili zədələnir. O artıq başqa insan olmaq, hətta insan olmaq belə istəmir.

Bölünüm, yüz tikə, min tikə olum

Bu adam üzümə baxa bilməsin.

Məni aynaların qırıqlarından

Toplaya bilməsin, yığa bilməsin. [43, s.24]

"Ayna qırıqlarından boylanan şair obrazı! - maraqlı deyilmi? Heç vaxt birləşməyəcək çiliklənmiş güzgüdə əbədiyyətə qovuşmaq - bir də adama - bu dünyaya görüşməmək arzusu! - bizcə bu lirik qəhrəmanın ən dözümlü və ən dözümlü obrazıdır." [18]

Poeziya janrının sosial yönünü digər ədəbi janrlarda olduğu kimi məzmun yönümlü yanaşmada da görmək olar. Bununla belə demək olar ki, şeirin ictimai ölçüsünü göstərmək üçün təkcə məzmun kifayət etməyəcək və şeirin təbiətinə uyğun olaraq yaradılmış bütün alt mətn oxunuşları, misralar və sözlər şeirin mahiyyəti ilə məna qazanır. Şairin məharətlə təsvir etdiyi ortamda yüz yerə, milyon yerə parçalanaraq özünü yenidən eyni insan olaraq toplaya bilməməsi anında Tanrının onu yenidən yaratmasını, amma başqa insan olaraq var olmasını istəməsini və yaranan yeni insanın özündən daha yaxşı olacağına ümid etməsini görə bilirik. Müxtəlif dərdlərlə yüklü olan bu dünyada ən böyük dərdinin özü olduğunu

düşünməsi onun həyatını daha da çətinləşdirir. Yenidən dünyaya gəlsə, hər şeyi dəyişdirə biləcəyini, yeni insan olacağını düşünür, lakin yeni insanı yaratmaq üçün indiki mövcud halı ilə mübarizə apara bilmir, bunun üçün çarəni yenidən yaradılışda görür. Sanki, Tanrını daha yaxşı insan olacağına, hər şeyi fərqli edəcəyinə inandırmağa çalışır, onunla "razılığa gəlmək" istəyir:

Təzədən dünyaya yollasan məni,

Bu adam olmaram, özgəsi ollam. [43, s.25]

Bundan başqa, şairin "indi"ni, əslində yaşadığı dövrün dəyərlərini, bu dəyərlərdən uzaqlığını ifadə etməsi ilə də şeir-məna-ictimaiyyət üçbucağı formalaşa bilər.

Elnarə Akimova vurğulayır ki, "Ramiz Rövşən poeziyası ümumiyyətlə, insanın fizioloji varlığını Tanrının əbədi Varlığına tabe tutur, ona yetmək üçün ölümü vəsf edirdi. [2, s.150]

Ramiz Rövşən şeirlərində ölüm mövzusuna çox yer verilməsi onun sentimental və pessimist olmasına görə deyil, həyata daha dərin, fəlsəfi baxdığı üçündür. Həyatın labüd sonu olan ölümü, bu bilinməzliyi düşünmək onu bədbin insan yox, düşünən insan edir. Ramiz Rövşən özü də qeyd edir ki, "Ümumiyyətlə, insan həyatının süqutu ölümdür. Həyatın sonu doğuluş ola bilməz. İnsan ölü də doğula bilər." [15]

Maksim Qorki Tolstoyla bağlı xatirələrində Lev Nikolayeviçin ölüm haqqında fikirlərini qələmə alır; Bir insan düşünməyi öyrənibsə, hansı mövzuda düşünürsə düşünsün, həmişə öz ölümü barədə düşünür. Bütün filosoflar belədir. Ölüm olduqdan sonra hansı həqiqətdən söz açıla bilər ki? "Ölüm və kədər niyə mücərrəd olsun ki? Hər kolun dibində, avtomobilin əyləcində, dalğaların kükrəyişində, hətta evimizdəki divanın yumşaq qoltuqlarında ayıq-sayıq dayanan, bizim hamımızı gözləyən və konkret olan ölüm niyə qeyri-konkret sayılsın; və tərsinə; hansınız ona əl verib görüşdünüz, sonra da qucaqlaşıb ayrıldınız? Yaxud, səbəbsiz, icazəsiz-filansız otağa dolan yel kimi qəlbimizin qapısını döymədən, bizim planlarımızla hesablaşmadan ara-sıra qonağımız olan kədər niyə mücərrəd olsun və həm də olmasın ki?" [6]

Bundan başqa, ölümü Tanrıya yetmək üçün bir vasitə, insanın Tanrıya tabe olması kimi də qiymətləndirmək olar. Şairin Allaha inamı da şeirlərində özünü büruzə verir. Ramiz Rövşən sanki Tanrını "insanlaşdırır", onunla söhbət edir, ona müraciət edir. "Bu həm də Allaha münasibətdə şeirin yalnız forma deyil, məzmun dəyişimi idi" [3]

"Həyatın mənası bir sonunun olmasındadır" deyir Franz Kafka. Ramiz Rövşən də həm həm həyatda, həm də ölümdə məna axtaran şair idi. "Ramiz bir müsahibəsində deyir ki: "Ölüm bütün dinlərin məğzindədi. Ölüm o qədər təbii, sadə anlayışdı ki… Platon deyir – hər bir yaradıcılıq öz gücünü ölümdən alır. Mən ən çox o vaxt yazıram ki, ölümlə toqquşuram. Yazmağın özündə bir ölməməzlik iddiası var. Yazırsan ki, ölməyəsən, qalasan, ölümdən sonra qalasan. Həyatın fonu ölümdü, ölümün fonu həyat deyil. Zen-buddizm fəlsəfəsində deyilir: "Bizim həyatımız ölümümüzdə qısa fasilədi." [52]

Əlinə qələm alıb ədəbiyyat dünyasında özünə yer tapan elə şair yoxdur ki, sevgi mövzulu şeir yazmasın. Əlbəttə, sevgi çoxcəhətli anlayışdır, sevgi məfhumu genişdir. Anaya, Vətənə, dosta, sevgiliyə duyulan bəşəri sevgi hissinin geniş məzmunda olduğunu nəzərə alsaq, bu mövzudan yazmamaq, hardasa, mümkünsüz hala gəlir. Ramiz Rövşən də sevgi mövzusuna toxunmuşdur, bu mövzuda fərqli, özünəməxsus, unudulmaz şeirlər ortaya qoymuşdur. Ramiz Rövşəni, həm də sevgi şairi adlandırmaq olar. Ramiz Rövşənin nəinki sevgi mövzulu şeirlərinin, həm də yaradıcılığının təməlini sevgi təşkil edir.

"Ramiz Rövşənin "Sevgi" şeirlərində başqa yenilikləri gördük. Bu bəşəri mövzunun daha yeni çalarları ilə onun şeirlərində tanış olduq. Düşünürəm ki, o, bu mövzudakı şeirləri ilə, sanki dənizin coşqun dalğaları ilə mücadilə edən bir insanı xatırladır. Yəni istəyir ki, dalğaları yarıb irəliyə getsin (qeyd etdiyim kimi, bu dənizdə Azərbaycan poeziyasında önəmli yer tutan şairlərin "Gecə xəlvətdə bizə sevgili yar gəlmiş idi (Nizami), "Pənbeyi dağı cünün içrə nihandır bədənim" (Füzuli), "Yenə o bağ olaydı, yığışaraq sizə biz" (M. Müşfiq), "İynənin ucu boyda işığa həsrət qalan göz işıq sevən kimi (Əli Kərim) əvəzsiz nümunələri var idi). Ramiz Rövşən elə o

cəsarətlə özünün "dadlı" (ifadəni belə işlədirəm), "təsirli", "şövqlü və mənalı" sevgi şeirlərini yaratdı." [72]

# II FƏSİL.
# RAMİZ RÖVŞƏN POEZİYASINDA BƏDİİ AXTARIŞLAR
## 2.1. Yeni dövr şeirin məzmun və forma dəyişiklikləri

1990-cı illər şeirinin məruz qaldığı yeni məzmun və forma keyfiyyətləri yeni nəslin poetik nümunələrində daha çox təzahür edirdi. Həyata, ölümə, dünyaya qarşı dəyişilən münasibət, şeirlərdə daha təsirli, mənalı düşüncələrin üstün olması, inkişafdan qalma, geriləmə kimi halların başlanğıc götürməsi başlıca məzmun keyfiyyətləri kimi üzə çıxırdı. Poeziya bundan əvvəl zövq vermək, estetik çalarlar yaratmaq mövqeyini ön plana qoyurdusa, indi şüuraltı ilə oynamaq, fikri yayındırmaq, qarışıqlıq yaratmaq kimi oyun çalarları ilə əvəz olundu. “Oyun” əlamətləri ilə köklənmiş poeziya isə ciddi yanaşılmağı tələb etmirdi, ciddi təsir bağışlamırdı. Tənhalıq, ölüm kimi mövzulara daha çox maraq göstərilsə də, bu məzmunlu poeziya nümunələri daha dərinlərə getsə də, bu artıq qorxu, vahimə yaratmır, buna açıq gözlə, təbii həyat hadisəsi kimi və soyuqqanlılıqla yanaşılırdı. 1990-cı illərdə şeirdə özünü göstərən yeni forma dəyişiklikləri məzmunda da dəyişiklik yaradır, onun da yeni formada ortaya çıxmasını zəruri edirdi.

Bədii yaradıcılıq və estetikada ən mühüm və əhəmiyyətli məsələlərdən biri də forma və məzmundur. Məzmun və forma anlayışlarına təkcə ədəbiyyatşünaslıqda deyil, fəlsəfədə, estetikada, incəsənətdə də rast gəlinir və irəli sürülən fikirlər mahiyyət etibarilə eynilik təşkil edir. Təkcə incəsənət, bədii ədəbiyyat sahəsində deyil, hər bir predmentin, obyektin də məzmun və forması vardır. Məzmun və forma bir-biri ilə vəhdət təşkil edir və məzmun formasız, forma isə məzmunsuz tam olmur. Hər bir predmentin olduğu kimi, ədəbiyyat nümunələrinin də əsas mahiyyətini, məğzini onun məzmunu təşkil edir. Forma isə məzmunu ifadə etmək, onu müəyyənləşdirmək, bir qəlibə salmaq üçün olan vasitədir. Məzmun və formanın bir-birilə uyğunluq təşkil etməsi bədii-estetik baxımından vacib şərtlərdəndir. Yazıçı qələmə aldığı istənilən mövzuya uyğun olaraq bədii forma yaratmalıdır. Bədii ədəbiyyat və ya incəsənətin hər hansı bir sahəsində yaradıcı şəxs real həyatda

gördüyü istənilən nəsnəni, hadisəni olduğu kimi əks etdirmir. İstənilən həyat həqiqəti sənətkarın bədii təxəyyülü ilə formalaşaraq bədii məzmun və forma qazanır.

Məzmun bədii nümunənin əsas mahiyyətidir. Bu daxili məzmun təsvir edilən əhvalarlar və hadisələrdən, obrazların, qəhrəmanların duyğuları, düşüncələri, hisləri, hadisələrə münasibətləri, bir-birləri ilə mübarizələri və bir çox əlaqələrinin əsasında yaranır.

Məzmun aparıcıdır, başlıca və əsas mahiyyət daşıyır, forma isə ona nəzərən, məzmunun əsasında yaradılır. Məzmun və forma anlayışları daim estetikanın, fəlsəfənin başlıca problemlərindən biri olmuşdur. Platonun, Aristotelin elmi-nərəzi irsinə nəzər yetirdikdə filosofların bu məsələnin şərhinə xüsusi diqqət yetirdiklərini görmək mümkündür. Aristotel məzmun və formanının asılılığını, bir-birinə bağlı olmasını qəbul etmirdi. Platon da formanı əsas hesab edirdi. Dekart, Boyl, Bekon, Hobs və digər filosofların elmi-nəzəri görüşlərində də məzmun və formaya xüsusi diqqət ayrılırdı.

Məzmunla forma bir vəhdət halında olsa da, bəzən aralarında konflikt halları da özünü göstərir. Bu hallar daha çox yeni mövzuların ortaya çıxması, köhnə formaların yeni mövzulara uyğunlaşa bilməməsi hallarında ortaya çıxır və yeni mövzu həm də yeni forma tələbini irəli sürür. Məzmun ön planda olmasına, aparıcı və əsas faktor olduğuna baxmayaraq formaya nəzərən dəyişikliyə meyillidir, tez-tez dəyişir. Bədii ədəbiyyatda forma məzmuna nəzərən daha mühafizəkar mövqedə durur. Nümunə olaraq demək olar ki, əsrlərdir ədəbiyyatda istifad olunan rübai, qəzəl, qitə, gəraylı, qoşma və digər formalar çərçivəsində yeni məzmunlu ədəbi nümunələr ərsəyə gətirmək mümkündür. Zəngin keçmişi və tarixi olan ədəbiyyat və ədəbi faktlar bunun doğru olduğunu sübut edir. İstər heca, istərsə də əruz vəzninin bəlli və möhkəmlənmiş qaydaları, qafiyə quruluşu, ölçüləri vardır. Yeni məzmunun əvvəlki formaya sığa bilməməsi sərbəst şeir formasının ortaya çıxmasına səbəb oldu.

90-cı illərin forma yenilikləri, dəyişiklikləri dünya cərəyanlarının şeirə tətbiq olunması fonunda baş tuturdu. “Poetik təfəkkürü vizual və virtual təsir “uçurumuna” uğratmaq, forma yeniliyi əldə etmək üçün (dünya ədəbiyyatının keçdiyi, amma bizim ədəbiyyatda yeni olan) eksperimentlərin tətbiqinə çalışmaq, müasir rus və keçmiş

sovet məkanından olan bir çox ölkə ədəbiyyatlarının maraq göstərdiyi ―poeziyada parnoqrafiya elementləri‖nın az da olsa tətbiqinə çalışmaq kimi meyllər" [8, s.10]

Milli müstəqillik dövründə şeirdə forma yenilikləri, bir sıra dəyişikliklər Salam Sarvanın şeirləri ilə giriş etdi. İlk nəzər yetirdikdə Salam Sarvanın şeirlərini Ramiz Rövşən qələmindən süzülən misralardakı fəlsəfi, psixoloji ovqat ilə uyğunlaşdırmaq, hətta müəyyən qədər eyniləşdirmək də olardı. Lakin daha dərin qatlara endikdə iki şairin yaradıcılığında fərqlər özünü göstərir və heç də eyni deyil. Salam Sarvanın şeirlərində daha çox konstruksiya özünü göstərir. Şair özü də etiraf edir ki, onun şeirləri instiktiv olaraq yaranmır, daha çox müəllifin quraması, məntiqi oyun kimi özünü göstərir. Burada psixoloji durum, fəlsəfi baxış düşüncəyə, ağla, məntiqi yanaşmaya tabe olur.

Əh… birin bilirsən sən də, birin yox
daha yıxılıram, heç xəbərin yox…
Gördüm ki, tutmağa özgə yerim yox,
tutdum yıxılmağa qorxduğum yerdən. [68]

Salam Sarvan şeirlərində əsas amil olaraq təzadlı fikirlər, düşüncələr özünü göstərir. Bir-birinə qarşı qoyulan zidd hislər, müxtəlif düşüncələr, məntiqi yanaşmalar, düşüncə, fikir qarışıqlığının yaranması, konkret bir ardıcıllıq olmaması, süjetsizlik konstruktiv şeirin əsasını təşkil edir.

Nəzər yetirdikdə görürük ki, konstruktiv şeirlərdə mövzu bənzərliyi, bəlli bir mövzu eyniliyi özünü göstərir. Bütün mətnlərdə mövcud olan oxşar keyfiyyətlər, mövzu eyniliyi açıq-aydın hiss olunur. Ruhun çıxılmaz vəziyyətə düşməsi, boşluq, tənhalıq hissi, insanın daxilən özünə qapanması əsas mövzular idi. Müraciət obyektinin ünvanları da dünya, Tanrı, insanlar və s. olmaqla eyni formada əks olunurdu. Nizami Cəfərov bu barədə qeyd edirdi ki, "… Məni narahat edən həmin nəslin öz içinə qapılması, içini yeməsi, geniş mənəvi-psixoloji aləmə çıxa bilməməsidir" [10, s. 581] Eyni forma çərçivəsində eyni məzmunun monotonluqla dövr eləməsi eynilik yaradır, fərqliliyə yol açmır, istedadlı, yaradıcı şairlərin poetik nümunələrində belə təkrar yaratmaqla yoruculuğa səbəb olurdu : "Bu dünyada nəyimiz var,/Ona aldanıb uduzduq./Biz oynayıb uduzmadıq,/Tanrı oynayıb

uduzdu./Bu dünyada dərd nə çoxmuş,/Hamı yedikcə çoxalır./Tanrı durduqca bir olur,/Bəndə öldükcə çoxalır./Bu dünyada hər əzabın/Sonu bəlliymiş sən demə./Aldanmaq yaşamağın ən/Asan həlliymiş sən demə..." [49]

Lakin, bütün bu əskikliklərə və çatışmazlıqlara baxmayaraq, yeni şeir mövcud qəlibləri yox etməyə, istiqamətverici yeni yol tapmağa, şüurda inqilab baş verməsinə yol açdı, poetik fikir sərbəstliyinə yol açması kimi cəhətləri ilə milli şeirin yenilikləri cərgəsinə daxil oldu.

Ramiz Rövşənin 1965-ci ildə qələmə aldığı "Onbirlik üstündə" şeiri "Gəlir təzə şeir, hecasız şeir,/ O "gül"süz, "bülbül"süz, hicransız şeir" misraları ilə başlayır. [61] Şeirin qələmə alındığı illərdə qeyd olunan misraların ədəbiyyata gətirilməsi təkcə yeniliyə edilən işarə deyildi, həm də öz ardınca yeni poetik dəyişiklikləri gətirəcəyinə edilmiş vəd idi. Müstəqillik dövründə yazılmış şeir nümunələri ilə tanışlıq zamanı heca vəzninin geri plana düşməsi, əhatəsinin daralmasını müşahidə etmək olur. Bu təkcə gənc, yeni ədiblərin yaradıcılıq yolunda deyil, həm də yaşlı nəslin ifadə üslubunda özünü göstərir. Köhnə nəsil keçmiş dövrdən o qədər də xoş ayrılmasa da, heca vəzninin əhatəsinin daralmasına, bu vəznə əvvəlki qədər müraciət olunmamasına etiraz edirdi. Nümunə olaraq, Ç.Əlioğlunun "Əlvida, on birlik heca şeirim…" poetik nümunəsinə nəzər yetirmək olar ki, burada şair heca vəzninin istifadəsinin azalmasına etiraz edirdi.

"Yenilik" aşiqi, naşı "şəyirdlər"
Nəzmin ağ bəhrində sərbəst üzürlər.
Bax, meydan sulayır, at səyirdirlər
Sənə əski deyir, ağız büzürlər… [16]

Lakin nəzərə almaq lazımdır ki, müasir dövr poeziyasında ənənələrdən kənara çıxmağı bacaran, postmodern düşüncəsini əhatə edən şeirlərin müəlliflərindən biri də Çingiz Əlioğlu olmuşdur. Şairlər sərbəst şeir formasında ədəbi nümunələr yaratmağa, müasir ədəbi təmayüllər fonunda şeir yazmağa cəhd etsələr də, hecanın tamamilə sıradan çıxacağından ehtiyat edir, onun işlənmə dairəsinin azalmasından qorxaraq mühafizəkar mövqedə dayanırdılar.

Yeni dövrdə də heca vəznində qələmə alınmış uğurlu şeirlər şairlərin bu vəzni qoruyub saxladıqlarını, mühazifəkar mövqedə durduqlarını sübut edir. V.Bəhmənli, Ç.Əlioğlu, B.Sadiq kimi şairlər qoşma, gəraylı kimi şeir növlərində uğurlu nümunələr ortaya çıxarırdılar. V.Bəhmənlinin müair dövrdə qələmə aldığı qoşmaları klassik aşıq ədəbiyyatının ruhunu özündə əks etdirir, oxucunu keçmişə qaytarmağı bacarır.

Sevda körükləyir iki sinəni,
Nə yaman alışır köz aramızda.
İsti sinən sini, sinəm səməni,
Yavaş ol, əzilər yaz aramızda. [7, s.128-129]

1990-cı illər poeziyasında başlıca forma xüsusiyyəti epik şeirin ön sırada öz yerini tutması idi. Şeirlərdə tərənnümdən daha çox təhkiyə əlamətləri ön plana çıxırdı, təsvirə meyilli olmaq, geniş epik məzmun başlıca üslubi keyfiyyətlər kimi qabarmağa başlamışdı. Şairlər öz müşahidələrini, şüuraltında qalan bir çox fikir və düşüncələrini təhkiyə elementləri ilə əks etdirməyə çalışırdılar. Bu şairlərin həyatın daha dərin qatlarına baş vurma istəyindən irəli gəlirdi. Yazılan şeirlərin poetik struktrunda fərqliliklər özünü göstərirdi. Müstəqillik dövrü poeziyasında nəsr və nəzmin növbələşməsindən də istifadə olunurdu.

1990-cı illərdən etibarən milli poeziyamızda möhkəmlənən epik başlanğıc gənc şairlərin yaradıcılığında daha qabarıq idi. Qismət Rüstəmovun şeirinə nəzər yetirək:

Oksigensiz tunellərdə keçir ömür.
Ömür dedikləri ölümə qədərki tunel.
Ölüm – depoya gedən qatardan düşməmək kimi bir şey.
-Qardaş, düşmürsənsə icazə ver düşək… [66]

Şeirdə təhkiyə ön plandadır, nəql etmə, təhkiyə, əhvalat üslubu daha qabarıq formada özünü göstərir.

Sovet dövründə tələb olunan müsbət aura, xoş fikirlər, xoşbəxt, kədərsiz, dərdsiz insan obrazı, insanın ancaq sevincinin qələmə alınması bu dövrün tələblərinə uyğun gəlmirdi. Əlbəttə, təkcə kədərdən, neqativ düşüncə və fikirlərdən ibarət poeziyanı da doğru hesab etmək olmazdı. Şeir bir düz xətt üzrə irəlilədikdə, eyni meyl üzərində inkişaf etdikdə poeziya monotonlaşır, eynilik və monotonluq isə şeirdə təzə üslub,

fərqli mövzu, yeni baxış bucağının yaranmasına, formalaşmasına, qələm sahiblərin öz daxili dünyasını istədikləri kimi əks etdirməsinə, özlərini, fikirlərini oxucularına tam formada çatdırmasına mane olur. Belə olduqda şairlər çox axtarışa üstünlük vermir, yeni mövzu axtarışına çıxmırlar.

1960-1980-ci illər Vaqif Səmədoğlu poeziyasına nəzər yetirdikdə şeirdə absurd vəziyyətlər, dərin mənəvi böhran, qəm, kədər motivləri, dərin və çoxqatlı təsvir səhnələrini müşahidə edirik. Vaqif Səmədoğlu saxta sevinc simvolikasını dağıtmağa, bu düşüncə tərzini dəyişməyə, əks qütbün də olduğunu, başqa tərəflərə də diqqət göstərilməli olduğunu göstərməyə müvəffəq oldu. Bu şeirlərin və şeirləri böyük sevgi ilə qələmə alan şairin məqsədi insanı pessimizmə sürükləmək, həyata, dünyaya qarşı mənfi baxış formalaşdırmaq deyil. Bu şeirlərin sayəsində əzablarla baş edə bilən, həyatın çətinliklərinə və reallıqlarına açıq gözlə baxan, mənəvi azadlıq idealları ilə zəngin, həm üsyankar, həm də, lazım gələrsə, vəziyyəti olduğu kimi qəbul etməyi bacaran insan formalaşır. “39-da doğuldum, 37-də öldüm” misralarından süzülən həqiqət keçmişimizə həssas olmağa, “Çörək boyat/xatirələr acı,/gələcək yanıq çıxdı…” misralarındakı cəsarət sabahımıza diqqətli olmağa sövq etdirdi bizi. [2, s.286]

Batan gəminin suya atılan
yükü kimi
kənara atıram ümidlərimi.
Ömrümün divarında bu gün yenə
kəndir dayanıb qapı yerinə… [70]

Vaqif Səmədoğlunun istifadə etdiyi bənzətmələr, müxtəlif situasiyaları ümumiləşdirməsi və uyğunlaşdırması oxucunu düşündürür və şeirin poetik gücünü artırır. Xilas olmaq ümidi ilə yükündən azad olmaq istəyən batan gəmi ilə ümidlərini özündən kənarlaşdıran insan eyniləşməsi, ümid və ümidsizliyin birlikdə təsviri insanı düşünməyə məcbur edir. Burada tükənmiş ümidlər, dünya ilə əlaqələr qırılır, şair qurtuluş yolu görmür. Ümidindən belə qurtulmaq istəyən lirik qəhrəmanın son vəziyyəti kəndirdir. Lakin bu poeziya kədər motivlərinə köklənsə də, həyata olan sevgiyə, yaşama istəyinə və arzusuna son qoya bilmir, ölümə daha cəsarətli və baş

verməsi labüd bir hadisə kimi baxmağa sövq edir. Vaqif Səmədoğlu hələ cavan yaşlarından ölüm fəlsəfəsindən anlayacaq, həyatı da ölümü də aydın dərk edə biləcək qədər müdrik idi və poeziyada harmoniyanı yaratmağı, onu qoruyub saxlamağı bacarırdı. 90-ci illər poeziyası isə dünyadan, həyatdan əlini üzmüş, daxilinə qapalı formada ortaya çıxırdı.

Müasir şeirdə baş verən yeni məzmun, forma axtarışları, bir sıra yeniliklər şairlərin söz oyununa yönəlməsi ilə bağlı idi. Şairlər insanların fikirlərini qarışdırmağa, onlarla düşüncə üzərində oynamağa cəhd edir, bir-birini inkar edən fikirlər, təzadlar qurmaqla şüuraltında möhkəmlənirdi. K.Abdulla, E.Piri, E.Bakiroğlu, M.İsmayıl kimi şairlərin şeirlərində qeyd olunan oyun əlamətləri öz əksini tapır, poeziyada öz yerini tutan və güclənən təmayülə çevrilir:

Varmı vərən bir soraq
Nerdəyəm mən, nerdəyəm?
Yaddaşına yaxşı bax,
Unutduğun yerdəyəm. [26]

Şeirin funksiyası izah etməkdir, o izah edilməyi tələb etməyəcək qədər aydın, həm də bəsit deyilməyəcək qədər düşündürücü olmalıdır. Poeziya öz təsir gücündən istifadə edərək bizə məlum həqiqətləri, dünyanı tamamilə dağıdıb fərqli dünyalara aparmalıdır. Şeir dünya, Tanrı, ölüm, yaradılış, həyat, sevgi haqqında olan bəlli düşüncə tərzini, konkret formalaşmış təsəvvürləri dəyişməli, ona fərqli yöndən baxmağa istiqamətləndirməli, düşüncə sərhədlərini genişləndirməlidir. Bunun üçün isə güclü poetik nümunələr tələb olunur, bir çox hadisəni göstərməyə gücü olan şeir nümunələrinə ehtiyac yaranır.

Yollar getdi üzü dağa,
Yoxuşlar enişlərdən çox.
Kimsə yox xatırlamağa,
Unutmağa da kimsə yox. [1, s.36]

Kamal Abdullanın qələmə aldığı bu misralarda xatırlamağa və hətta unutmağa kimsənin olmaması, təklik, tənhalıq hissi aydın hiss olunur. İnsan yaşadığı xatirələrin toplusudur və xatirələrdən, xatırladıqlarından ibarətdir. Xatirələrimizdə

möhkəmlənən anlarla birgə unutmaq istədiyimiz, xatırlamaqdan qaçdığımız hadisələr baş verir, unutmağa cəhd etdiyimiz insanlar da olur.Lakin unutmağa kimsənin olmaması uzun həyat yolunun qəribsənməsindən irəli gəlir. Eyni zamanda, xatırlamaq və unutmaq haqqında düşünmək xatırlanacaq kiminsə olmasına da işarə edir. Kamal Abdulla şeirlərində formanı özündən asılı hala salan məzmun yeniliklərini görmək mümkündür.

Müasir poeziyada postmodernizm əlamətlərindən biri olan dekonstruksiyadan da istifadə olunur. Dekonkstruktiv şeir dedikdə postmodernizm cərəyanının əsaslandığı axın olan dekonstruktivizm nəzərdə tutulur. Əsasını Jak Derridadının qoyduğu bu axın postmodernizmin başlıca əlaməti kimi fərqlənir. Dekonstruksiya mətnin məzmununda dəyişikliklər edilməsi, bəlli bir mətnin başqa formalara salınması, köhnə məzmunun tamamilə darmadağın edilməsi kimi xüsusiyyətləri əhatə edir. 90-cı illərdə dünya cərəyanlarına artan maraq, dünya ədəbiyyatı nümunələrində mövcud olan cərəyanların poeziyamıza gətirilməsi gedişatında dekonstruktiv şeirə olan yönəlmələr postmodernizm əsas xüsusiyyəti kimi təzahür edirdi. Nəsrdə də K.Abdulla, İ.Fəhmi romanlarında özünə yer tapan bu təmayül poeziyada Z.Əzəmətin, M.Köhnəqalanın, A.Yaşarın yaradıcılığında görünürdü. Şeirdə bu təmayül fərqli olan 2 formada, iki kontekstdə özünü göstərirdi. Bunlara mövcud mətnlərin və ya bəlli mətnlərdə konkret qəhrəman tipinin yeni və fərqli formada göstərilməsi və ironiya, köhnə mətnlərin dəyişikliklərə uğraması, modifikasiya edilməsi, mətni yeniləşdirmək üçün edilən cəhdlər daxildir. Hər iki vəziyyətdə də burada əsas məsələ "mif"in dağıdılması üzərində qurulub. Zahir Əzəmətin bir şeirinə nəzər yetirək:

Onsuz da
xoşbəxtlik və mən
bir taleyin oyununda cütlənmiş zərik,
yüz il qoşa atılsaq da,
qoşa düşmərik!
el bilir ki,
vətən mənim,
vətən sənin,

vətən heç kimin! [20, s.115]

Postmodernizmin xüsusiyyətlərindən biri olan ironiya belə şeirlərdə ən yüksək həddə çatır. Şairlər cəmiyyətdəki hər boşluğu görməyə çalışır, dövlət, insan, siyasət və digər bir çox şey ironiyanın predmeti olur.

İkinci mövqedə olan ən uğurlu yazıçı kimi Kamal Abdullanın adını çəkmək mümkündür. Kamal Abdullanın "Dədə Qorqud: Mənlik deyil", "Ümid qaldı sabaha", "Dədə Qorqud: "Mən nə edim", və "Bəkilin xatunu: "Dilim, dilim, vay dilim…" [1, s.123-150] kimi mətnləri dekonstruktiv şeir nümunələri kimi diqqəti çəkir. Yazıçı "Kitabi-Dədə Qorqud" dastanının mətninə əsaslanaraq bəlli motivləri təzə versiyada ortaya çıxarır, bəzi boylarda olan ümumi quruluş və fabula məsələləri bu şeirlərdə əks olunur. Burada yazıçı həm də intertekstuallıqdan istifadə edir ki, bu da müəllifin digər əsərlərlə əlaqə yaratması deməkdir. Bu zaman müəllif istər başqa bir müəllifin əsəri ilə, istərsə özünün qələmə aldığı hər hansısa bir ədəbi nümunə ilə bağlılıq yaradır, bu mətnlərə təkrar müraciət edir.

## 2.2. Ramiz Rövşən poeziyasında bədiilik

Ramiz Rövşənin şeirlərində mövzuya münasibət bildirərkən yaratdığı ziddiyyətlər bir həqiqətdir. Əgər şair intuitiv təfəkkürün arxasınca gedirsə, demək ki, bu birmənalı deyildir. O, yeni bir şey aşkar etmişsə, demək ki, əvvəlkindən fərqli bir düşüncəyə işarət edir. Ramiz Rövşən poeziyası "təsvir yox, təcrübə" dir. Yəni şair xarici aləmdəki bəlli hadisə və qavramları dərk edərək mənimsəyir və onları mənalandırır.

Ramiz Rövşənin sevgi şeirlərində real təsvir səhnələri, real duyğular öz əksini tapır. Şair öz qəhrəmanlarını göydən yerə endirir, onları real insanlar olaraq təsvir edir. Bu şeirlərdə olan realist yanaşma aydın nəzərə çarpır. "O başqaları kimi sevgisini ənənəvi gülə, bülbülə oxşatmır." [32]

Ramiz Rövşənin sevən, hətta sevərək ayrılan obrazları ağlayan, ah-fəğan edən, dünyadan əlini üzən obrazlar deyil, düşünən obrazlardı. Şair obrazlarını ağlatmır, düşündürür, kədərləndirir amma "öldürmür". Lirik qəhrəmanlar düşündükcə, oxucu da onla paralel düşünür. Onun yaratdığı qəhrəman gəlməyəcəyini bildiyi halda gözləyəcək qədər sevsə də, küsməyəcək və "Sən getdin, mən ki ölmədim" [45, s.102] deyəcək qədər də güclü obrazdı. "Sevgi – xəstəlikdir. Ayıldın, keçdi" [15] deyir Ramiz Rövşən. Həyat da, insan da dəyişkəndir və bununla bərabər insanın düşüncələri, həyata baxışı, istəkləri, həmçinin hisləri də dəyişə bilər. Buna görə də, şair sevgini ilahiləşdirmək yerinə, hər mümkün halı düşünür. Sevgi hissinin dəyişməsinə də, sevginin ucalığı, ülviliyi, gücünə də, sevə-sevə ayrılığa da ayıq gözlə baxır və mümkün hal kimi qiymətləndirir. Şairin qəhrəmanları da yüz yol ölüb dirilsə də, yenə dönə-dönə sevə biləcək, həm də son görüşə belə "ən gözəl donu" ilə gələ biləcək qədər cəsarətli, sevgini də, ayrılığa layiqincə bacaran insanlardır. Orta dövrdə, xüsusən də, Ramiz Rövşənin xüsusi qiymətləndirdiyi Füzuli yaradıcılığında ölüm sevginin, eşqin təsdiqi idi. Canını qurban verəcək, uğrunda öləcək qədər sevmirsənsə, sevgi bəhsini açmaq doğru deyildi. "Aşiq odur kim, canın fəda qılır cananına" [65] deyən Füzulidən fərqli olaraq Ramiz Rövşən "Mən sənsiz ölmədim,

məni bağışla" [43, s.57] deməklə sadəcə üzrxahlıq edir. Eşqi ilahi səviyyəyə qaldıran, pərvanətək oda yanan, "bəlayi-eşq ilə aşina" olmaq istəyən Füzuli qəhrəmanlarından fərqli olaraq, Ramiz Rövşənin qəhrəmanları evindən tapdığı "köhnə məktublar"ı kimə yazdığını, hətta bu məktubun ömür yoldaşına məxsus olduğunu xatırlamır, "ömrün təzə səhifəsi açılırdı qabaqda, amma sənə bircə sətir yer yoxdu o varaqda" [45, s.87] deyərək sevgisini "silməyi" də bacarır. Bununla yanaşı, müsahibəsində sevgini xəstəlik kimi qiymətləndirən şair, başqa bir şeirində "sevgi adlı din" misrasını qələmə alaraq sevgini uca, yüksək, ilahi səviyyəyə qaldırır.

Ramiz Rövşənin sevən qəhrəmanları müxtəlifdir. O, "Hətta təlxəklər də yaşaya bilər, böyük məhəbbətin faciəsini" [45, s.27] deyərək gülməli hərəkətləri və zarafatları ilə insanları güldürən təlxəyin belə sevgi ağrısını dərindən hiss edə biləcəyini göstərir. "Bu şəhərdə ən gözəl iş səni sevməkdi, sevmək!" [45, s.58] deyərək sevginin ən gözəl iş olduğunu, onu dəyişdirdiyini, bütün yolların sevgiyə və sevgisinə çıxdığını dilə gətirir. "Sən bax mənə bütün pəncərələrdən, bütün qapıları üzümə sən aç." [45, s.71] misraları sevdiyi insanı daim görməyinin xoşbəxtliyini əks etdirir.

Hələ bu cür sevməmişdim

Ömrüm boyu heç kimi.

Səni sevdim qar üstündə

Yem axtaran quş kimi. [45, s.124]

Misralarını qələmə alan şair, başqa bir şeirlərində isə "Mən səni sevmirdim", "Həsrət çəkib ürəyimi yormadım" [45, s.34] kimi fikirlərini də irəli sürərək sevgi anlayışının hər kəs üçün eyni olmadığını, hər kəsin gözəl və doğru sevə bilməyəcəyini də göstərir. "Səni mənimçün daha ötmüş, bitmiş bir dünən idin" [45, s.87] , "Sən mənim sevdiyim insan deyilsən, mənə sevdiyimi unutduransan" [45, s.90] misraları nə qədər amansız səslənsə də, bir o qədər də real insan hislərini və bir çox insan düşüncələrini əks etdirir. Ramiz Rövşən sevgi dərdindən və o insanın yoxluğundan ah-fəğan etmək yerinə, bunu qəbul edən, həyatına davam etməyi

bacaran obrazlara da öz poeziyasında yer verir. “Sevgi də bir səfərdi, çıxaq təzə səfərə” [45, s.85] misrası yeni sevgiyə, yenidən sevəcəyinə inamı göstərir. Keçmişə bağlı qalmamaq, hər itənə, hər gedənə uşaqtək ağlamamaq Ramiz Rövşənin yaratdığı qəhrəmanlarda tez-tez rast gəlinir - “Daha uşaq deyiləm – hər itənə ağlayam” [45, s.81]

Bir yalan sevgidən yorulmaq asan,

Bir ölən sevgini diriltmək çətin.

Günəşli günlərdə vurulmaq asan,

Yağışlı günlərdə unutmaq çətin… [45, s.39]

Şairin sevgi və ayrılıq mövzulu şeirlərindən “Ayrılıq” şeiri çox sevilən və dillər əzbəri olan şeirdir. “Şairin bildirdiyinə görə, şeirin ilk iki bəndi tələbəlik illərində konkret ünvana yazılıb. O, 20 ildən sonra şeirə yenidən qayırdaq qalan bəndlərini yazıb və şeirə fəlsəfi məzmun qataraq onu tamamlayıb.” [73]

Yenə bu şəhərdə üz-üzə gəldik
Neyləyək, ayrıca şəhərimiz yox.
Bəlkə də, biz xoşbəxt ola bilərdik,
Bəlkə də, xoşbəxtik, xəbərimiz yox. [43, s.57]

Ayrılan iki sevgilinin illər sonrakı qarşılaşması, bu qarşılaşma anında obrazın yaşadığı daxili təlatümlər, psixoloji durumu, düşüncələrə dalması, yaşadıqlarını və yaşaya bilmədiklərini analiz etməsi Ramiz Rövşən qələmi ilə mükəmməl formada əks olunmuşdur. Şair bu şeirində təkcə sevgiyə deyil, həm də həyata fəlsəfi baxışını ortaya qoymuşdur.

“İnsanı poetik mətnin mərkəzinə gətirib ona yeni çalarlıq vermək kontekstində milli şeirimiz bədii-estetik zəmini məhz, az öncənin poetik təcrübəsindən, keçib gəldiyi 60-ci illər şeirindən alsa da bu artıq fərdi duyğuların əsirinə çevrilmiş, lirik subyektin şəxsi başlanğıcından çıxış edən, inikas formaları və təzahür şəkilləri başqa olan fərqli bir poeziya idi. Bunu şairin hətta sevgiyə həsr olunmuş şeirlərində belə görüb duymamaq mümkünsüz idi” [3] Qələmə alınan ritorik suallar, özünə

ünvanlanan və cavab tapa bilmədiyi sorğular, ayrılığın və ötüb keçən illərin insanı dəyişdirməsi, həyatda qarşılaşdığı çətinliklər təkcə obrazı deyil, şeiri dərin kədərlə oxuyan oxucunu da düşündürür. Şeirin hər bir misrası o qədər ustalıqla qələmə alınıb ki, oxucu bu hisləri dərindən duya bilir, lirik qəhrəman ilə daxili yaxınlığını, xüsusi bağı hiss edə bilir və nəinki onu anlayır, həm də bunları yaşayan, sanki, özü imiş kimi bir hissə qapılır.

Ayrılıq günündən, son görüşdən nə qədər keçdiyini belə dəqiq xatırlamayan qəhrəman sevdiyi insanı tanıya bilmir. Tanımamasına səbəb nə idi – ötən illər, unudulan xatirələr, yoxsa illərin dəyişdirdiyi, ona yad olan fərqli bir insanı qarşısında görmək? "Mən elə bilirdim sənsiz ölərəm, mən sənsiz ölmədim, məni bağışla" [43, s.57] deyərkən şair, əslində, real həqiqətləri üzə çırpır. Çox sevdiyin, xüsusi bağlılıq duyduğun istənilən bir şəxsi itirmək insana həyatın sonu, özünün də ölümü imiş kimi bir hiss yaşada bilər. Lakin, həqiqət budur ki, hər insan müxtəlif formada  yaşamağa davam edir və həyat da, zaman da dayanmır. Bəxtiyar Vahabzadənin də dediyi kimi, "yaşamaq yanmaqdır, yanasan gərək" [74].  "Bəlkə də mən sənsiz ölmüşəm elə" [43, s.57] deyən şair obrazı yaşamağını, necə yaşadığını və bəlkə də heç yaşamadığını düşünməyə başlayır. Cismən hələ də var olan, yaşayan iki insanın ayrılıq ilə ruhən öldüyünü, ayrılıqdan sonra artıq əvvəlki insan kimi olmadığı qənaətinə gəlir. Bir insanı tanımaq, onunla vaxt keçirmək insanı dəyişdirdiyi kimi, o insandan ayrılmaq da onda köklü dəyişikliklər yarada bilir.

Bəlkə də, biz onda ayrılmasaydıq

Nə mən indikiydim, nə sən indiki. [43, s.57]

Lakin bu düşüncələr, bu suallar onu daha əvvəl düşündürmüşdü, yoxsa sadəcə illər sonra baş verən görüşdən yaranan emosianallıqla baş qaldıran fikirlər idi bunlar, bu o qədər də bəlli deyil. Hər bir halda şairin yaratdığı obraz düşünən qəhrəmandı.

Bu ilin, bu ayın bu günündəki,

Elə bu küçənin bu tinindəki

Məni də, səni də öldürdük onda. [43, s.57]

Şeirin sonrakı bəndlərində şair təkcə bu ayrılığa və ayrılığı yaşayan iki insana deyil, bütün insanlara və bənzər yaşanan vəziyyətlərə nəzər yetirir, şeirə fərqli bir ahəng, başqa bir fəlsəfi məzmun qatır. “Hamı günahkardı dünyada, amma dünyada heç kəsin günahı yoxdu” [43, s.58] misrası oxucunu düşünməyə vadar edir. Baş verən həyat hadisələrində birbaşa və ya dolayı yolla təsiri olan insan, həm də “Bizsiz yazılmışdı bu tale, bu baxt, sapanddan atılan bir cüt daşıq biz” [43, s.58] deyərək şikayət etməyə haqqı olan insandı.

“İndi siz mənim “hamı günahkardı dünyada, amma dünyada heç kəsin günahı yoxdu” misralarımı yada saldınız. Bu misralarda günaha, günahkara bəraət yoxdu. Baxmayaraq ki, bəziləri özləri üçün bunu bəraət hesab edə bilərlər. Məsələ ondadı ki, hansı prizmadan baxırsan. [24]

Şair dünyanın nizamının pozulduğunu, ən doğmaların belə yadlaşmasını dərin kədərlə və bir o qədər də absurdluqla “dilə gətirir”.

Bəlkə öz bətnində ögey analar
Ögey balaları gəzdirir indi. [43, s.58]

Dünyanın tərsliyini və ələmini başa düşən qəhrəman bir vaxtlar sevdiyi insana “ölüsən, dirisən, hər nəsən, dayan” deyə müraciət edir. Amma ondan uzaq qaçan və yaxınlaşmaması üçün yalvaran qarşı tərəf fərqli və gözlənilməz əsas gətirir.

Deyirsən: "Ölüyəm, ölünü öpmə..."
Əlimin içində, soyuyur əlin.
Deyirsən: "Sən allah, əlimi öpmə,
əlimdən, deyəsən, qan iyi gəlir... [43, s.59]

Artıq ölü olduğunu bildirən qarşı tərəf, əlindən “qan iyi” gəldiyini qeyd edir. “Qana bulanmış” əllərinin səbəbi öz “ölümü” idi, yoxsa sevdiyi insanın “qatili” olmuşdu, bu bir o qədər də bəlli deyil. Hər bir halda, bu bir az Özdəmir Asafın qeyd etdiyi “ölümü” xatırladır ; “Gözlə dedi getdi; Mən gözləmədim, o da gəlmədi. Ölüm kimi bir şey oldu amma kimsə ölmədi.” [67]

“Ramiz Rövşənin şeirlərindəki bəzi misralar isə xalq arasında məşhurdur. Bir təbrizli dostum deyirdi ki, Təbriz cavanları bir-biri ilə görüşəndə şairin bu sözlərini işlətməyi sevirlər: “Yenə bu şəhərdə üz-üzə gəldik”.” [72]

Ramiz Rövşən poeziyasında qadın mövzusu özünəməxsus yer tutur. Şair qadın mövzusuna və qadına fərqli və bir o qədər də real yanaşaraq bu mövzulu şeirlərində öz dəst-xəttini nümayiş etdirir. Ramiz Rövşən şeirinin qadın obrazları cəfakeş, vəfalı, sadiq, bir çox əzaba dözən və hər şey rəğmən ailəsinə bağlı olan Azərbaycan qadınlarıdır.

“Ramiz Rövşənin sevgi mövzusunda yazdığı şeirlərdə qadın dünyasının, qadın yaşamının ekzistensiyası yaradılır, iç məqamlara diqqət yönəltməklə onun mənəvi sarsıntı və yaşamı mənəvi-psixoloji müstəviyə çıxardılırdı. “Ayrılıq” , “Qarapaltarlı qadın” , “Bu güzgüyə bir vaxt qoşa baxardıq”, “Sevim dönə-dönə səni” … bu şeirlərin hər birində fərdi-fərdi iç duyumların mənalanması var, qadın obrazının kişi nəzərlərindən mövcud dərinlik və gerçəklikdə, poetik gücdə açımı, qavramı, həssas duyumu var. Poeziyanın “səs” dövrü öz apologiyasını yaşayır, düşüncənin dərinliyi artır, pıçıltıya eniş önə keçirdi.” [3]

Şairin “qara paltarlı qadın” şeiri bu mövzuda xüsusi seçilən və sevilən şeirlərdəndir. Bu şeirdə şair xarakterindən asılı olmayaraq bütün kişilərə müraciət edir.

Kişilər bir olmur, atam balası, -
qorxağı var, igidi var.
Amma hər kişinin öləndən sonra
qəbri üstə ağlayası
Bir qara paltarlı gözəl qadına
ümidi var. [43, s.62]

“Qara paltarlı qadın kabus kimi, ölüm mələyi kimi H.Cavidin dramaturgiyasında var idi. XX əsr rus poeziyasına onu “gümüş dövrün” nəhəngi A. Blok simvolizmin qəhrəmanı kimi gətirdi.Və R. Rövşənin də ən yaxşı şeirlərindən biri məhz o qara paltarlı qadının sayəsində yarandı.” [18]

Şair bu şeirdə insanı hələ sağ ikən ölüm haqqında düşünməyə, öldükdən sonra heç bir şeyi dəyişməyin mümkün olmadığına, onun qayğısına qalan, cəfasını çəkən xanımına layiq olduğu dəyəri göstərməli olduğu barədə düşünməyə vadar edir. Yaşayarkən dəyərini bilmədiyi, qayğı və nəvaziş göstərmədiyi, bir xoş sözlə belə müraciət edib saçına sığal çəkmədiyi, göz yaşını silmədiyi qadının ömür yoldaşının ölümündən sonra belə qara paltarı, "qara bəxt"i və "qara gün"ləri, amma ağarmış saçları ilə birlikdə qəbrin yanından əskik olmayacağını bildirir.

Bircə kərə
nə saçını oxşamışam,
nə gözünü silmişəm,
Gözlərimə batır indi
saçlarının hər dəni.
İllər boyu
bu qadına mən axı dərd vermişəm,
İndi görən niyə çəkir dərdimi?! [43, s.62-63]

Müsahibələrinin birində Ramiz Rövşənə bu mövzu barədə sual verilir, ondan həyatında "qara paltarlı qadının olub-olmaması haqqında soruşulur. O isə səmimi cavab verməkdən çəkinmir və cavablayır; "Onu mən bu dünyadan gedəndən sonra biləcəksiniz. Tək mənim yox, hamının qara paltarlı bir qadını var" [48]

Növbəti bəndlərdə şair "ölü"nün düşüncələri və nitqi ilə şeiri daha da mənalandırır. "Sağlığında qiymət verin insanlara" deyən Cabir Novruzdan fərqli olaraq Ramiz Rövşən ölmüş birinin dəyərini bilməyə səsləmir, hələ də yaşamağa davam edən birinə dəyər vermədiyi üçün mənəvi əzab çəkən ölünü təsvir edir və özünün ölümündən əvvəl həyatındakı insan(lar)a dəyər verməli olduğunu göstərir.

Ən çox ağlatdığı insanın onun üçün ən çox ağlayan insan olması, baş daşını öpməsi, sığallaması ona mənəvi əziyyət verir. Mənəvi əzaba və vicdan sızıltısına dözməyən "ölü" qadından getməyini və artıq ağlamamasını xahiş edir.

Bütün mənə ağlayanlar kiridi,
sən də kiri, qəbrim damır, ağlama!.. [43, s.63]

İllərdir ona mənəvi əzab verən, sevgidən, qayğıdan məhrum buraxan ərinin qəbrinin üstündən çəkilməyən qadının səbəbi nə idi? Mənəvi borc olaraqmı görürdü, keçmiş günlərəmi, yoxsa bundan sonrakı təkliyinə görəmi ağlayırdı "qara paltarlı qadın"? Bəlkə də hər şeyə rəğmən sevirdi ömür yoldaşını, nə bilmək olar?

"Bir anlıq adama elə gəlir ki, kişi başını qaldırıb "niyə çəkirsən dərdimi?" soruşsa, qadın heç düşünmədən Sevirdim səni! deyəcək, sonra da əlavə edəcək: "İndi də sevirəm!" [63]

"Bir dəfə məşhur "Qara paltarlı qadın" şeirindəki qadının kimliyinə aydınlıq gətirib. Onun sözlərinə görə, şeirdəki qadın onun xanımı deyil: "Sözügedən şeirdə qadın kişidən daha yüksəkdə durur. Qadını o qədər alçaltmışıq ki, kişilərlə bərabər etmişik". [76]

Şairin qadın və qadına sevgi mövzusuna, ailə-məişət məsələlərinə fərqli yanaşması "Soğan acısı" şeirində də özünü göstərir. Şeir "soğan soya-soya ağlayan qadın"a müraciətlə başlayır. Soğanın gözləri yaşartması ilə qadının kədərdən ağlamasını sintez edən şair, həm də bu vəziyyəti analiz edir. "Bir şirin öpüşlə başlayan sevgi"nin sonunda "soğan acısı" ilə nəticələndiyi, böyük ümidlər və arzular ilə başlayan sevgi və evliliyin "ömrün acısı"na çevrilməsi və belə davam etməsi qadını ağladır. "Həyat səni güldüründə gülmüsən, hünərin var, ağladanda gül görüm" [62] deyir Bəxtiyar Vahabzadə. Lakin, kədərin, ağrının, həyatın çətinliklərinin daha rahat öhdəsindən gəlmək birlikdə addımladığın insan(lar) həqiqi mənada yanındadırsa və sənə dəstək olur(lar)sa mümkün olur. Şeirdə təsviri verilən qadın isə, sevgidən, qayğıdan, psixoloji və mənəvi dəstəkdən məhrum olan, çəkdiyi zəhmətin "bir quru təşəkkür" ilə belə qarşılığını görə bilməyən qadındır.

Gələr "ər" dediyin hər gecəyarı,

Bir qaşıq xörəyin baxmaz dadına.

Yuxuda dilindən qopan adların

Biri də bənzəməz sənin adına. [43, s.406]

Növbəti bənddə isə şair bu qadına müraciət edərək onun göz yaşlarını silə bilməyəcəyini, ona doğma deyil, yad olduğunu və yanında ola bilməyəcəyini təəssüf və kədər hissi ilə bildirir. Maraqlısı budur ki, şair növbəti və eyni zamanda son bənddə özünün də bu dünyada sevgi axtardığını, lakin o qadının da evində soğan soya-soya ağlayacağını qeyd edir. Lakin o qadının da ağlamasının eyni səbəblə olacağı - soğanın sadəcə bəhanə olması və qadının kədər göz yaşlarının "soğan acı"na qarışacağımı yoxsa səbəbinin həqiqətən "soğan acısı"mı olacağı bəlli deyil. Hər bir halda şair cəmiyyətin çoxluğunun eyni formada ailə həyatını yaşamasını poetik dillə ifadə edir.

Bir sevgi gəzirəm dünyada mən də,
O sevgi hardadı?
Bilmirəm ancaq.
Kim soğan soyacaq mənim evimdə,
Soğan soya-soya kim ağlayacaq?!… [43, s.407]

Şairin məqsədi qadınların zəif olduğunu, əziyyət çəkməyə və sevgisizliklə yaşamağa layiq olduğunu göstərmək deyil, əksinə, bütün bunları çılpaqlığı ilə cəmiyyətin "üzünə vurmaq", onları bu barədə düşündürməkdir. Şairin bu və ya digər şeirlərində tənqid özünü göstərmir və şairin bu məsələdə hansı mövqedə olduğu əks olunmur. Ramiz Rövşən sadəcə mövcud vəziyyəti təsvir edir və qiymətləndirməyi, həmçinin, nəticə çıxarmağı oxucunun özünə buraxır. Cəmiyyətdə və bir çox ailələrdə müşahidə etdiyi mövcud vəziyyətin real təsvir səhnələrini qələminin gücüylə bəzəməsi bu şeirləri mütaliə edən oxucuları kədərləndirir və düşündürür.

Ramiz Rövşən sonuncu nəşr etdiyi "Bu dünyanın hər sifəti" kitabında bir çox filmlər və tamaşalar üçün qələmə aldığı şeirlərinə yer verib. Şair kitabın "Ön söz yerinə" hissəsində qeyd edir ki, əksəriyyəti yumor və ironiyayla dolu olan bu "gülməli" şeirlər və mahnı mətnləri mənim əvvəlki kitablarımdakı ciddi, bəzən hətta "ağlamalı" şeirlərimi sevən oxucularıma hədiyyəmdir. [37, s.7] Bu kitabda "Evlənmək istəyirəm", "Kişi sözü", "Əzablı yollar", "Hacı qara", "Girişmə, öldürər",

“İşarəni dənizdən gözləyin”, “Xüsusi vəziyyət”, “Ağ atlı oğlan”, “Tərsinə çevrilən dünya”, “Onun bəlalı sevgisi” filmlərindən, eyni zamanda, “Bağışla”, “Üç görüş”, “Səhərə inan”, “Kamança”, “Ac həriflər”, “Bu meydan, bu şeytan”, “Müsyo Jordan və Dərviş Məstəli şah” tamaşalarından, “Tıq-tıq xanım” cizgi filmindən və “Baş tutmayan film və tamaşalardan” şeirlər və mahnı mətnləri yer alıb. Böyük sevgi və diqqətlə qələmə alınan bu şeirlər istər filmlərdə, tamaşalarda bu mahnı və şeirləri dinləyən tamaşaçıda, istərsə də kitabı oxuyan oxucuda rəğbət hissi yaradır və sevilir. Ramiz Rövşənin “Onun bəlalı sevgisi” filmi üçün qələmə aldığı “Bağışla” şeiri Azərbaycan Respublikasının Xalq Artisti fəxri adını daşıyan iki böyük şəxsiyyəti – Flora Kərimova və Emin Sabitoğlunu birləşdirir. Ramiz Rövşən qələmi, Flora Kərimova ifası və Emin Sabitoğlu bəstəsi ilə unudulmaz mahnıya çevrilən “Bağışla” ürəklərə toxunmağı və sevilməyi bacarır.

Bir ötən sevgini unuda bilsəm,

Könlümü sevginlə ovuda bilsəm,

Bir axşam yanına qayıda bilsəm,

Bağışla, bağışla, məni bağışla. [37, s.34]

Ramiz Rövşən bir çox şeirlərini müxtəlif şairlərə və onların xatirəsinə həsr etmişdir. Aydın Məmmədovun xatirəsinə həsr etdiyi “Tabut”, H. Mehdiyevə “Tanıyır”, əmisinin xatirəsinə yazdığı “Son nəfəs”, Füzulinin xatirəsinə “Şam”, V.Bayatlıya “Çıxır”, Məhəmməd Hadinin xatirəsinə “Bir adayam, qərib ada”, Əli Kərimin xatirəsinə “Daş”, Nazim Hikmətin xatirəsinə “Dərdimi danışdım suya”, Natiq Səfərova “Adam”, K.V. Nərimanoğluna “Fikir içində”, V.Səmədoğluna “Canavar”, K.Abdullaya “Bir ovuc suda”, Ə.Elçibəyə “Daş atan bilirmi nə günah eylər?”, Anara “Hamı qardaş olsa da” şeirləri bu qəbildən olan şeirləridir. Bunlardan ən məşhuru Afaq Məsuda həsr etdiyi şeirdir.

Bir səhər yuxudan durub

Özünü uşaq görəsən.

Görəsən hamı evdədi,

Ölənləri sağ görəsən. [43, s.293]

Böyük tərcüməçi olan Ramiz Rövşən M.Y. Lermantov, M. Sveyatayeva, Q. Viyeru, A. Axmatova, F.Q. Lorka, S. Kirsanov. A.S. Puşkin kimi böyük şairlərin bir sıra şeirlərini Azərbaycan dilinə mükəmməl formada tərcümə etmişdir. Bədiilik və söz seçimi baxımından hər bir cümləyə xüsusi yanaşan şair uğurlu tərcümə şeirləri ərsəyə gətirmiş, bu tərcümə şeirləri Azərbaycan dilində qələmə alınan şeirlərdən heç də fərqlənməmişdir.

İkisi də bir-birini dəli kimi sevirdi,

İkisi də bir-birindən gizlədirdi bu sirri.

Ağızucu salam verib keçirdilər görəndə,

Elə bil ki, zəhlələri gedirdi bir-birindən. [45, s.24]

Ramiz Rövşən azyaşlı oxucularını da unutmamış, onlar üçün də bir-birindən maraqlı və əyləncəli şeirlər qələmə almışdır. “Göyərçinim, gəl görüm” şeir kitabında şəkilli əlifba, əlifbanın hər hərfinə uyğun şəkillər və şeirlər yer alıb. Beləliklə, uşaqlar əlifbanı öyrənərkən bunu əyləncəli formada edə bilir, hər bir hərfə uyğun olaraq həmin hərflə başlayan şeirləri də oxuyaraq, öyrənməni daha yaddaqalan, daha maraqlı formada həyata keçirə bilirlər.

Əynimdə palto,

Əlimdə əlcək.

Neylərsən mənə?

Ay şaxta, əl çək! [40]

“Gizlənmişəm tap məni” şeir kitabında da şairin uşaq şeirləri bir arada toplanılıb. Bu kitabda şairin daha maraqlı, nisbətən daha böyük həcmli şeirləri cəmlənib. Ramiz Rövşənin uşaq şeirlərinə nəzər saldıqda da görürük ki, o nəinki böyüklərin, həmçinin, uşaqların da ruhundan, istəklərindən, maraqlarından anlayan, onlara yaxşı bələd olan, onları düşünən və uşaqların da sevgisini qazanan şairdir. Şair

müsahibələrinin birində qeyd edir ki, onun uşaq şeirləri uşaqlar üçün mənəviyyat və dil baxımından peyvənddir, uşaqlara dünyanı tanıtmaq, uşaqların dünyaya münasibətini formalaşdırmaqdır. Şair eyni zamanda qeyd edir ki, onun istəyi cəmiyyətdəki uşaqların ədalətli və güclü olaraq böyüməsidir. Bu səbəblə uşaq şeirlərində daha müsbət yüklü məqamlar, pozitiv, xoş aura özünü göstərir. Şair mənfi olaraq yanaşılan bir sıra canlılara da, məsələn, qurbağa, ağcaqanada, fərqli və dostcasına yanaşaraq uşaqlara da kini, nifrəti, neqativ köklü düşüncələri yox, daha mehriban və dostca davranışı, hər şeyə fərqli yanaşmanı öyrədir.

Adın ağcaqanaddı,
Gör nə gözəlcə addı.
Adamları sancmağın
Heç adına yaraşmır.
Vız-vız edib uçmağın
Qanadına yaraşmır.
Vızıldama, bəsdi,sus
Bu cür uçmağı tərgit.
Ya adını dəyiş, dost,
Ya da sancmağı tərgit. [38]

Şairin əyləncəli yanaşması, istifadə etdiyi sözlər, cümlə quruluşları bu şeirləri yaddaqalan edir. Bir-birindən maraqlı, əyləncəli şeirlər nəinki uşaqlar tərəfindən, böyüklər tərəfindən də oxunur və sevilir.

Sənətkar və cəmiyyət bir-birinə təsir edən və bir-birindən təsirlənən canlı dövrədir. Ramiz Rövşən hesab edir ki, sənətkar və cəmiyyət birlikdə düşünülməlidir, bir-birindən ayrı ola bilməz.

“Mahiyyətində sevgi olmayan heç bir əsər əbədi ola bilməz” [24] Ramiz Rövşənin özünün də qeyd etdiyi kimi, hansı mövzuda yazmış olsa da, şeirlərinin,

yaradıcılığının təməlini sevgi təşkil edib. Sevgi ilə qələmə aldığı, qəlbinin dərinliklərindən süzülən misralar səmimi, sevgi dolu, xalq dilinə yaxın, düşündürücü və özünəməxsus formada olduğu üçün xalq şairi hər kəs tərəfindən sevilən birinə çevrilmiş, misraları dillər əzbəri olmuşdur. Dərin məna yüklü, geniş fəlsəfi qatlarla zəngin Ramiz Rövşən poeziyası illər keçsə də, köhnəlmir və sevilir.

Ramiz Rövşən nadir şairlərdəndir ki, poeziyada öz yerini, mərtəbəsini hamıdan artıq özü duyur. "Mən özümdən müştəbeh deyiləm. Mən özümdən arxayınam. Mən təkcə Azərbaycan yox, bütün dünya poeziyasından da az-çox xəbərdaram. Və özümün bu poeziyada yerimi, mərtəbəmi də çox gözəl bilirəm. [52]

Beləliklə, poetikada dərin məna düşüncələri ictimai dəyişikliklərin şairlərə təsir qüdrətini, eləcə də şairlərin sosial dəyişikliyə necə təsir etdiyini göstərir. Hər sənət və sənət anlayışı əks düşüncədən hərəkət etsə də, yaşadığı dövrün sənətkarı, mənsub olduğu cəmiyyətin fərdi olduğunu göstərir.

## Nəticə

Azərbaycan ədəbiyyatında bakalavr, magistr hətta fəlsəfə doktoru işləri sırasında araşdırmaya az cəlb olunmuş, bəzən diqqətdən kənarda qalan mövzular içində bir mövzuya həsr edilmiş "Ramiz Rövşən poeziyasında məzmun və forma axtarışları" adlı dissertasiya işi ilk dəfə olaraq magistr pilləsində tədqiqata cəlb olundu. Bu baxımdan ədəbiyyatımızda 1960-1990-cı illər poeziyasında yeni təmayüllər, Ramiz Rövşən şeirinin mövzu dairəsi, ümumiyyətlə, yeni dövr şeirin məzmun və forma dəyişiklikləri, Ramiz Rövşən poeziyasında intuitiv təfəkkür və bədiilik və s. kimi mühüm məsələlər araşdırmaya cəlb olunaraq müxtəlif aspektlərdən incələndi. Bütün söylənən fikirlərdən belə bir nəticəyə gəlmək olar ki, poeziya zəngin ədəbiyyatımızın ayrılmaz hissələrindən biridir. Ədəbiyyatın qızıl mirasları olan poeziyanın araşdırmaya cəlb olunması, diqqətdən kənarda qalmaması olduqca vacib məsələdir. Poeziya özündə bir çox mənəvi, tərbiyəvi, əxlaqi, vətənpərvərlik, milli duyğular və s. tərənnüm edərək insan mənliyinin, şəxsiyyətinin yetişdirilməsində önəmli rol oynayır. Bir çox siyasi çətinliklərin sınağından cəngavər kimi çıxan poeziyamız bugün istər ali, istərsə də orta məktəbdə tədris olunaraq öz qüdrətini göstərir.

Azərbaycan poeziyasından söhbət açarkən isə xüsusi diqqət edəcəyimiz məqamlar vardır. Bu xüsusda araşdırmaya cəl olunan mövzu ilı bağlı ümumi nəticələri aşağıdakı kimi şərh edə bilərik:

1. İlk olaraq tədqiqat işində qarşıya qoyulan iki məqsədə nail olundu ki, bunlardan biri müstəqillik əldə etdikdən sonra müasir dövr Azərbaycan poeziyasının da çiçəklənməyə başlaması, xalqın ruh yüksəkliyi, vətən sevgisi, gerçəkləşən istiqlaliyyət arzusunun şair və yazıçılarımızın yaradıcılığına da təsirsiz ötüşməməsi araşdırıldı.
2. İkincisi isə poeziyanın xalqın həyatında oynadığı rolu, onun mənəvi təsir arealını araşdırmaq idi ki, bu da dissertasiyanın tədqiqat sahəsini daha da genişlətmiş oldu.

3. Yeni dövr poeziyasında forma və məzmun dəyişiklikləri, məzmun və formanın bir-birilə uyğunluğu, yazıçının qələmə aldığı istənilən mövzuya uyğun olaraq bədii forma yaratması və istənilən həyat həqiqətinin sənətkarın bədii təxəyyülü ilə formalaşaraq bədii məzmun və formaya çevrilməsi daha çox diqqətdə saxlanılmaqla araşdırıldı. Məzmun bədii nümunənin əsas mahiyyəti olaraq, əhvalatlar və hadisələrdən, obrazların, qəhrəmanların duyğuları, düşüncələri, hissləri, hadisələrə münasibətləri, bir-birləri ilə mübarizələri və bir çox əlaqələrinin əsasında yaranması nəticəsinə gəlindi.
4. Ramiz Rövşən yaradıcılığının tədqiqi zamanı aydın oldu ki, müasir Azərbaycan cəmiyyətini və çağdaş dünyanı narahat edən, düşündürən ən mühüm məsələlər onun mövzu obyektinə çevrilmişdir. Bunun təzahürünü biz onun tədqiq etdiyimiz müxtəlif mövzulu şeirlərində izlədik. Belə ki, bu seirlərdə fəlsəfi-psixoloji, mənəvi-əxlaqi problemlər müxtəlif mövzuların kontekstində işlənildiyi nəticə olaraq təqdim olundu.
5. Şairin şeirlərinin mifiklikdən uzaq bir reallığa tapınmasına, onun poetik intuisiyasının keçdiyi təkamül yoluna nəzər saldıqda, diqqəti çəkən cəhətlərdən biri də sənətkarın hər dövrdə həyatı bədii ifadə üsulunun səciyyəsi və özünəməxsusluğu ilə təqdim etməsi nəticəsinə gəlmək olur.
6. Daha bir nəticədə Ramiz Rövşənin müəyyən mənada öz yaradıcılığına tənqidi prinsiplərlə yanaşması tendensiyası ortaya çıxdı ki, bu da öz növbəsində sənət nöqteyi-nəzərindən onun yaradıcılığının yüksək səviyyədə durmasının dərki və ifadəsi idi.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Abdulla K. Nar çiçəkləri. Bakı: Mütərcim, 2014, 152 s.
2. Akimova E. Çağdaş poeziya və ədəbi təmayüllər (monoqrafiya), Milli Virtual-Elektron Kitabxana, Bakı: 2018, 374 s.
3. Akimova E. Ramiz Rövşən şeri iki əsrin qovşağında. /“Ədəbiyyat” qəzeti, 2016, 8 oktyabr. s.16-17
4. Akimova E. Yeni təmayüllər və ədəbi-tarixi şərait. /“Ədəbiyyat” qəzeti, 2015, 14 mart, s.14
5. Alışanlı Ş. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı. Bakı: Elm, 2011, 376 s.
6. Babullaoğlu S. Yazmağı sevdirən və öyrədən Ramiz Rövşən. /“525-ci qəzet”, 2011, 15 dekabr, s.6
7. Bəhmənli V. Hamı. Şeirlər. Bakı: Çağdaş, 2012, 400 s.
8. Cabbarlı N. Yeni nəsil ədəbiyyatı. Bakı: Elm, 2006, 456 s.
9. Cahangir Ə. Kim yatmış, kim oyaq. Bakı: Yazıçı, 2012, 520 s.
10. Cəfərov N. Azərbaycanşünaslığa giriş. Bakı: AzAtaM, 2002, 602 s.
11. Cəfərov N. Ramiz Rövşən və ya bir üslubun suqqestiyası. /“525-ci qəzet”, 2015, 3 oktyabr, s.19
12. Elçin. Tənqid və ədəbiyyatımızın problemləri. Bakı: Yazıçı, 1981. 359 s.
13. Əbilov A. Yeni ədəbi nəsil: axtarışlar, problemlər. Bakı: Yurd, 2002, 66 s.
14. Əhmədov T. XX əsr Azərbaycan yazıçıları (ensiklopedik məlumat kitabı) Bakı: Nurlan, 2004, 984 s.
15. Əliqızı Z. Şeirin əvvəl havası gəlir, sonra özü. /“Kaspi” qəzeti, 2020, 25 yanvar. s.10
16. Əlioğlu Ç. Seçmə şeirlər. //“Ulduz” jurnalı №1, Bakı, 2006
17. Əliyev R. Ramiz Rövşən, metafizika, invariantlıq. /“Bizim Yol” qəzeti, 2016, 9 dekabr, s.15
18. Əliyeva-Kəngərli G. İlahi, al məni şeirin əlindən! “525-ci qəzet”, 2015, 26 iyun, s.22-23

19. Əsgərli Ə. XX əsr Azərbaycan şeirinin poetikası. Bakı: APOSTROFF, 2014, 316 s.
20. Əzəmət Z. Divar yazıları. Bakı: Adiloğlu, 2006, 144 s.
21. Əzimova T. Ramiz Rövşən poeziyanın saf havasıdır. /"Ədalət" qəzeti, 2013, 20 iyul, s.6-11
22. Hacıyeva İ. Ramiz Rövşən şeirlərində assosiasiyanın təzahür formaları. //Filologiya məsələləri, №7, Bakı, 2012, s.312-315
23. Həşimzadə N. Ədəbiyyatımızın Ramiz Rövşən dövrü. /"Ədəbiyyat" qəzeti, 2018, 22 dekabr, s.9
24. Hüseynoğlu S. Şeir müəllifdən ayrı öz taleyini yaşayır. /"Ədəbiyyat" qəzeti, 2015, 13 fevral, s. 16-17
25. XXI yüzilə nə ilə gedirik. (tənqidçi Yaşar Qarayevlə müsahibə) /"Ədəbiyyat" qəzeti, 1997, 30 oktyabr
26. İsmayıl M. Yeni şeirlər. //"Azərbaycan" jurnalı №3, Bakı, 2009
27. Kamal R. Sözlərin gücsüzlüyü, Ramiz Rövşən və qış günəşi. /"Ədəbiyyat" qəzeti, 2016, 17 dekabr, s.6-7
28. Qaraca R. "R" hərfi olmayan aylar. Bakı: Adiloğlu, 2006, 48 s.
29. Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996, 712 s.
30. Qasımbəyli Y. Milli oyanış və özünəqayıdış lirikası. Bakı: Elm və təhsil, 2012, 452 s.
31. Qədir C. Şair heç vaxt şeirdən azad ola bilmir. /"525-ci qəzet", 2016, 29 noyabr. S.4
32. Qiyas Ə. Şam. /"Ədəbiyyat" qəzeti, 2016, 10 dekabr, s.17
33. Quliyev Q. Dəlidən doğru xəbər. Bakı: Mütərcim, 1999, 160 s.
34. Mehdizadə İ. Karvanın sarvanı. Bakı: Qarabağ, 2008, 663 s.
35. Məmməd Z. Kölgə obrazı. (Ramiz Rövşənin yaradıcılığı haqqında). /"Ədalət" qəzeti, 2014, 29 noyabr, s.12
36. Müşfiq Ş. Ramiz Rövşən rüzgarının yeni dalğası. /"525-ci qəzet", 2019, 18 may, s.15
37. Rövşən R. Bu dünyanın hər sifəti. Bakı, TEAS Press Nəşriyyat evi, 2021, 164s

38. Rövşən R. Gizlənmişəm, tap məni. Bakı: 3 alma, TEAS Press, 2018, 35 s.
39. Rövşən R. Göy üzü daş saxlamaz. Bakı: Yazıçı, 1987, 157 s.
40. Rövşən R. Göyərçinim, gəl görüm. Bakı: TEAS Press, 2018, 68 s.
41. Rövşən R. Kədərli sual. /"Ədəbiyyat" qəzeti, 2019, 30 noyabr, s.6
42. Rövşən R. Köhnə qorxular. Bakı: TEAS Press, 2021, 280 s.
43. Rövşən R. Nəfəs-kitablar kitabı. Bakı: Qanun, 2006, 750 s.
44. Rövşən R. Ramiz Rövşən: Bəlkə də, ürəklərində məni qısqanırlar, amma... /"Ədalət" qəzeti, 2019, 21 dekabr, s.8
45. Rövşən R. Sevgi açarı. Bakı: TEAS Press, 2019, 256 s.
46. Rza R. Çinar ömrü. Bakı: Azərnəşr, 1990, 197 s.
47. Rza R. Seçilmiş əsərləri. 5 clddə. V cild. Bakı: Yazıçı, 1983, 281 s.
48. Səlimqızı C. Şair ilk növbədə özünə qarşı səmimi olmalıdır. /"Xalq Cəbhəsi" qəzeti, 2016, 16 dekabr, s.16
49. Səməd A. Seçilmiş şeirlər. //"Azərbaycan" jurnalı №6, Bakı, 2004
50. Səmədoğlu V. Mən burdayam, İlahi. Bakı, 1996
51. Yusifli C. Ramiz Rövşən yaradıcılığı poetik sistem kimi. Virtual İnternet Resurs mərkəzi. Bakı, 2014, 240 s.
52. Yusifli V. Bir qoca işığam mən bu yaşımda. //" Azərbaycan" jurnalı, №12, Bakı, 2016, s.30-34
53. Yusifli V. Poeziyanın yolları və illəri (1960-2000-ci illər). Bakı: Mütərcim, 2009, 404 s.

## İnternet resursları

54. http://anl.az/down/meqale/adalet/2014/noyabr/404502.html
55. http://archive.azyb.az/cgi-bin/jurn/main.cgi?id=843
56. http://qisadersmuhazireleri.blogspot.com/2016/01/mzmun-v-forma.html
57. http://rasulrza.musigi-dunya.az/rengler/mavinin_teselli_az.shtml

58. http://senet.az/dekadentizim-anlayisi-v%c9%99-onun-%c9%99d%c9%99biyyatda-t%c9%99zahur-formalari/
59. http://www.anl.az/down/meqale/bizim_yol/2016/dekabr/519416.htm
60. http://yarpaq.az/az/allahi-lduren-sair/
61. http://yarpaq.az/az/cagdas-azerbaycan-seiri-icre-gezismeler/test
62. http://zeynisoy.com/az/bxtiyar-vahabzaddn
63. https://525.az/?name=xeber&news_id=14401
64. https://525.az/news/81127-ramiz-rovsen-indi-seirler-ancaq-yazilir-yasanmir
65.https://az.wikisource.org/wiki/Q%C9%99z%C9%99l_(A%C5%9Fiq_oldur_kim,_q%C4%B1l%C4%B1r_can%C4%B1n_f%C9%99da_canan%C4%B1na)
66. https://azkurs.org/qismet-meqapolis-huznleri.html?page=2
67. https://big.az/63936-ozdemir-asaf-aforizmleri.html
68. https://elqerez.tumblr.com/post/173743497901/buludlar-tozdurmu-bel%C9%99-qopular-ya%C4%9F%C4%B1%C5%9F%C4%B1n-yol-ke%C3%A7ib
69. https://kaspi.az/az/resul-rza-poemalarinin-bedii-xsusiyyetleri
70. https://kaspi.az/az/vaqif-semedolunun-tekrarsizlii
71. https://kulis.az/xeber/senet/li-Krimdn-colorredgunun-seiricolor-15746
72. https://musavat.com/news/tikani-gule-ceviren-sair-sair-ramiz-rovsenin-70-illiyine_402805.html
73. https://news.milli.az/society/561512.html
74. https://qafqazinfo.az/news/detail/yasamaq-yanmaqdir-yanasan-gerek-66612
75. https://wq-az.wikideck.com/Fyodor%20Dostoyevski
76. https://www.adalet.az/w158023
77.https://www.ayb.az/index.php/k%C3%B6%C5%9F%C9%99d%C9%99kil%C9%99r/%C5%9Feirl%C9%99r/4452-%C9%99li-k%C9%99rim-%C5%9F%C9%99hidliyin-zirv%C9%99si.html
78. https://xeber100.com/ustad-ramiz-rovs%C9%99nin-70-illiyin%C9%99/